www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 avqust 2016-cı il Cümə axşamı № 169 (6490) Qiymətı 60 qəpik

**Xəbər**

## Bakıda ana uşağını qonşulara verib qaçdı

yazısı səh.14-də

**Gündəm**

### YAP yetkilisindən referenduma dair ilginc açıqlamalar



**Siyavuş Novruzov:** "Növbədənkənar seçkilərlə bağlı deyilənlər kimlərisə şirnikləndirmək üçün ortaya atılan xülyadır"

yazısı səh.3-də

### Nardaran məhbusları məhkəmədə ifadə verdilər

yazısı səh.2-də

### Erməni deputat xalqı üsyana səslədi

yazısı səh.5-də

### Nurçularla "gülənçi"lər arasında fərq varmı?

yazısı səh.6-da

### Arif Hacılı ilə Əli Kərimli arasında uğursuz referendum görüşü...

yazısı səh.7-də

### İsrailin qondarma "erməni soyqırımı" haqqında mövqeyinə qarşı erməni hikkəsi

yazısı səh.10-da

### Sərkisyan rejiminin Qarabağla bağlı yeni, gizli planı

yazısı səh.11-də

### Bizdə və Avropada çörəyin qiyməti

yazısı səh.12-də

### Şamaxıda həşərat sancan 14 yaşlı qız öldü

yazısı səh.14-də

### 6 ayda Azərbaycanda 283 nəfər İİV-ə yoluxub

yazısı səh.15-də

### Ölkənin taxıl ehtiyatı yetərlidirmi...

yazısı səh.13-də

### Bakıda film kimi quldurluq

yazısı səh.14-də

### 16 və 14 yaşlı bacılar dənizdə batdı

yazısı səh.14-də

# SƏLİM MÜSLÜMOVUN KORRUPSİYA OCAQLARINDAN BİRİ SÖNDÜRÜLÜR

Ünvanlı sosial yardım adı altında baş verən qanunsuzluqları dayandırmaq mümkün olmadığından, prezident məsələyə kəskin mövqe bildirib; əmək və əhalinin sosial müdafiəsi nazirinin yaratdığı rüşvət mexanizmi kökündən qazınır; nazirlik isə iddia edir ki...




yazısı səh.4-də

# Sərkisyan Jirinovskinin tüpürcəyini necə yaladı...

Kremlin danışan dilinin Ermənistan haqda alçaldıcı sözlərinə İrəvanın susqun reaksiyasının ilginc səbəbi; rusiyalı siyasətçinin dediklərinə heç bir rəsmi təpkinin olmamasına daxildən etirazlar gəldi...

yazısı səh.5-də


Rauf Arifoğlu

### "Yeni Müsavat" niyə əvvəlki kimi deyil? - oxucunun sualına cavab

yazısı səh.9-da


Hakan Fidan

### Türkiyə MİT-in rəhbəri "sudan quru" çıxa biləcəkmi...

yazısı səh.8-də



### Rövnəq Abdullayev Ərdoğanla görüşdə nədən danışdı...

yazısı səh.2-də

4 avqust 2016



## İlham Əliyev: ‘’Azərbaycan-ABŞ əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə çatıb’’

**Azərbaycan prezidenti İlham Əliyev ABŞ prezidenti Barak Obamanı ad günü münasibətilə təbrik edib. Trend-in məlumatına görə, təbrikdə deyilir: “Ad gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.**

Bu gün Azərbaycan ilə Birləşmiş Ştatları dostluq əlaqələri üzərində qurulmuş sıx və çoxşaxəli əməkdaşlıq münasibətləri birləşdirir. Ölkələrimiz arasında qar şılıqlı surətdə faydalı əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə uğurla davam edir. Enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində əlaqələrimiz yüksələn xətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Qlobal təhdidlərə və terrorizmə qarşı mübarizə sahəsində səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

İkitərəfli münasibətlərimizin hazırkı səviyyəyə yüksəlməsində, əməkdaşlığımızın gündən-günə genişlənməsində Sizin xidmətləriniz böyükdür. İnanıram ki, Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Eyni zamanda biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli istiqamətində ATƏT-in Minsk Qrupunun həmsədri kimi Birləşmiş Ştatların və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə əlamətdar gündə bir daha Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar diləyirəm".



## Rövnəq Abdullayev Ərdoğanla görüşdə nədən danışdı...

**SOCAR-ın prezidenti Rövnəq Abdullayev avqustun 2-də Ankarada Beynəlxalq İnvestorlarla Yüksək Səviyyəli İqtisadi Dialoq toplantısında iştirak edib. SOCAR-dan Axar.az-a verilən məlumata görə, toplantıdan sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan SOCAR rəhbərini qəbul edib.**

Türkiyə və Azərbaycan arasında strateji dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini vurğulayan Türkiyə Prezidenti SOCAR-ın Türkiyədə həyata keçirdiyi layihələrin iki qardaş ölkənin iqtisadi inkişafına mühüm töhfə verdiyini vurğulayıb.

Layihələrin icrası üzrə işlərin gedişi ilə maraqlanan Türkiyə Prezidenti SOCAR-ın fəaliyyətinin dəstəkləndiyini bildirib, yatırımlarının əhəmiyyətini qeyd edib və fəaliyyətlərin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əmin olduğunu deyib. SOCAR prezidenti Rövnəq Abdullayev şirkətin fəaliyyətinə verilən dəstək üçün təşəkkürünü bildirib, bütün layihələrin qrafikə uyğun şəkildə davam etdiyini söyləyib, Türkiyə Prezidentini əmin etdib ki, SOCAR həyata keçirdiyi bütün layihələri vaxtında və yüksək keyfiyyətlə başa çatdıracaq.


### “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.


# Nardaran məhbusları məhkəmədə ifadə verdilər

## Taleh Bağırzadə ittiham aktını “cəfəngiyyat” adlandırdı

**“Müsəlman birliyi” Hərəkatının sədri Taleh Bağırzadə, hərəkatın 16 üzvü və Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin müavini Fuad Qəhrəmanlının cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



Musavat.com-un məlumatına görə, proses başlamazdan öncə təqsirləndirilən şəxslərdən bəzilərinin anası yerdən hakimə müraciət edərək övladlarının günahsız olduğunu bildiriblər: “Allaha and olsun ki, bizim balalarımızın günahı yoxdur. Sizə qurban olum, onları həbsdən buraxın”.

Məhkəmə zalında yer olmadığından səfirliklərin və beynəlxalq təşkilatların nümayəndələri məhkəmə zalına buraxılmayıb. AXCP sədrinin müavini Fuad Qəhrəmanlı buna etiraz edib və bildirib ki, əgər onlar zala buraxılmasa, o və digər təqsirləndirilən şəxslər zala arxalarına çevirəcəklər. Daha sonra zaldan təqsirləndirilən şəxslərin yaxınlarından bəziləri zaldan çıxarılıb və səfirlik nümayəndələri prosesə buraxılıb.

Prosesdə prokuror ittiham aktını elan edib. İttiham aktında qeyd edilib ki, Tale Bağırzadə və tərəfdarları “Müsəlman Birliyi” Hərəkatını təsis edərək mütəşəkkil dəstə yaradıb, vəzifə bölgüsü aparıb, ianə və üzvlük adı altında pul yığaraq hakimiyyəti zorla ələ keçirməyə, dövlətin konstitusion quruluşunu dəyişməyə yönəlik çağırışlar edib.

İttiham aktında qeyd edilir ki, T.Bağırzadə dəstə üzvlərinə terror aktlarının törədilməsinə dair qanunsuz göstərişlər verib.

“Onlar şəriət qaydaları ilə idarə olunan dini dövlət qurmaq üçün mütəşəkkil dəstədə birləşiblər. Əhalini kütləvi ixtişaşlara, hakimiyyəti güc yolu ilə ələ keçirməyə səsləyiblər”, - deyə ittiham aktında bildirilir.

İttiham aktında AXCP sədrinin müavini haqda deyilir ki, Fuad Qəhrəmanlı da facebook səhifəsində dini irqi düşmənçilik zəminində müxtəlif tarixlərdə sosial çağırışlar edərək əhalini Nardaran camaatına dəstək olmağa və iğtişaşlara səsləyib, dini nifrət və düşmənçilik salan çağırışlar edib.

Prokuror ittiham aktını elan etdikdən sonra hakim təqsirləndirilən şəxslərdən onlara qarşı irəli sürülən ittihamlarla özlərini təqsirli bilib-bilmədiklərini soruşub.

Tale Bağırzadə ittiham aktının cəfəngiyyat olduğunu deyib. Digərləri də özlərini günahkar bilmədiklərini söyləyiblər.

Prosesin davamında T.Bağırzadə sərbəst ifadə verib.

O, heç bir təşkilata, xarici qurumlara bağlı olmadıqlarını deyən T.Bağırzadə günahsız olduqlarını söyləyib. O, çıxışında iddia edib ki, saxlanan zamanı və istintaq hərəkətləri həyata keçirilərkən işgəncələrə məruz qalıb: “...Heç bir çıxışımda hakimiyyət əleyhinə yönələcək çağırışlarım olmayıb. Mən sadəcə xütbə zamanı dua edib demişəm ki, "dünyanın hər bir yerində ədalət bayrağı dalğalansın". Bu duanı dünyanın hər bir yerində müsəlmanlar da, xiristianlar da, yəhudilər də edir. İstintaqı aparanlar o qədər savadsızdılar ki, bu duanı dövlət çevrilişinə cəhdin sübutu kimi təqdim ediblər. Bu duanı Allahşükür Paşazadə və digərləri də edir".

T.Bağırzadə ona işgəncə verilməsi ilə bağlı danışarkən deyib ki, onlar ifadələri təzyiqlər altında veriblər.

Prosesdə təqsirləndirilənlərdən Abbas Hüseynov ifadə verib. Məhkəmə prosesi avqustun 4-də davam etdiriləcək.

Qeyd: Reportajdakı ixtisarlar redaksiyaya məxsusdur.

**❑ İlkin MURADOV**

# Rövşən Lənkəranskiyə Ermənistanda çıxarılan hökm

**Rusiyada cinayətkar aləmin “kralı”, yaxud “№1 oğru” hesab edilən “Şakro Molodoy” ləqəbli Zaxari Kalaşovun həbsi ətrafında yeni versiya gündəmə gəlib.**



Virtualaz.org xəbər verir ki, kriminal aləmə yaxın hesab edilən “Rus mafiyası” adlı (“Russkaya mafiya”) internet portalın məlumatına görə, Şakro Molodoyun həbsinə sifarişi onun düşmənləri Rövşən Lənkəranski və müttəfiqləri verə bilər.

Sayt bu sifarişin motivlərini əsaslandıraraq yazır ki, cinayətkar aləmin Yaponçik və Ded Xasan kimi “generallarının” öldürülməsindən sonra taxt-tac Zaxari Kalaşova keçdi. Çünki Şakro kriminal aləmdə tez-tez meydana çıxan münaqişələrin dayandırılmasının tərəfdarı idi və özü də qarşıdurmaları yatırmaqda çox ustaydı.

Şakro İspaniya həbsxanasında cəza çəkəndə Rövşən Lənkəranski və onun müttəfiqləri - gürcü qanuni oğrular Cemal Mikaladze (Cemo) və Merab Canqvelidze (Merab Suxumski) Moskvanın praktiki olaraq bütün bazarlarına, xidmət sektoruna nəzarəti ələ keçirmişdilər. Və belə bir vaxtda Şakro İspaniya həbsxanasından cəzasını çəkib çıxdı və müəmmalı şəkildə Rusiyaya ekstradisiya olundu. Belə ki, Şakro Gürcüstanda qiyabi olaraq 17 il həbsə məhkum edilmişdi və bu ölkənin hüquq-mühafizə orqanları İspaniyadan onun ekstradisiyasını tələb edirdi. Ancaq görünür, Şakro Rusiyada kimlərəsə çox lazım idi və bu nüfuzlu oğrunu İspaniyadan Rusiyaya yola saldılar. O, çox keçmədən kriminal aləmdə liderliyi ələ aldı.

Rusiyaya qayıdandan sonra Şakronun birinci işi “sxodka” çağırmaq oldu. O, qanuni oğruları Ermənistanda topladı, çünki toplantı iştirakçılarının bir çoxu Rusiyada axtarışda idi. Həmin “sxodka”da klanlar arasında bütün qarşıdurmaların dayandırılması barədə hökm verdi. Habelə ondan qabaqkı dövrdə qanuni oğru statusu alanların bir çoxunun məsələsinə yenidən baxdı. Bunlar Rövşən Lənkəranskinin qruplaşmasına daxil olan gürcü kriminal avtoritetlər idi. “Sxodka”da Şakronun Rövşən Canıyevin, Cemal Mikaladzenin və 10-a qədər digər kriminal avtoritetin oğru statusunun geri alınması haqda qərar çıxardığı bildirilir.

Sayt yazır ki, Şakronun gəlişindən sonra Canqveladzenin nəzarətində olan narkotrafik də bağlandı. Söhbət böyük pulların itirilməsindən gedirdi və tamamilə aydın idi ki, Canqveladze bu biznesi güc strukturlarındakı adamlarının himayəsi altında yürüdürdü. Və indi belə görünür ki, düşmənləri Şakrodan qisas alır və hüquq-mühafizə orqanlarındakı adamları vasitəsilə onun həbsinə nail olur. Bununla da Rusiya xüsusi xidmət orqanları kriminal aləmi nəzarət altına almaq istiqamətində mühüm addım atırlar. Belə ki, Şakronun yerinə əsas namizəd “Piçuqa” ləqəbli avtoritet Yuri Piçuqindir. Onun FTX-də və digər güc strukturlarına çox güclü əlaqələri var. İstisna deyil ki, bu əlaqələrin sayəsində Piçuqa kriminal aləmdə irəliləyə və hüquq-mühafizə orqanlarının xoşuna gəlməyənləri sıradan çıxara bilər. Artıq məlumdur ki, Piçuqa Zaxari Kalaşovun həbsindən sonra “obşak”a nəzarəti ələ keçirib...



## Dollar bahalaşmaqda davam edir

**Azərbaycan Mərkəzi Bankı (AMB) avqustun 4-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən “APA-Economics”ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi avqustun 4-nə 1,5947 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5915 manata bərabər olub.

## Qızdan analığına qarşı film kimi cinayət - Evə basqın edib, qadını döydülər

**Qız tanışı ilə əlbir olub, ögey anasının qızıllarını oğurladı. Paytaxtın hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində Yasamal rayonu ərazisində törədilmiş quldurluq cinayətinin üstü açılıb.**

İyulun 27-də saat 11 radələrində Yalçın Ramazanov tanışı Nəzrin Əliyeva ilə qabaqcadan əlbir olaraq qızın analığı Tatyana Alimovaya məxsus qızıl-zinət əşyalarını ələ keçirmək məqsədilə, onun yaşadığı mənzilə daxil olub. O, özünü Qaz İstismarı İdarəsinin əməkdaşı kimi təqdim edib. Qadının əllərini və boğazını yapışqan lentlə bağlayıb, ona yumruqla xəsarət yetirən şəxslər evi qarət ediblər.

Faktla bağlı Yasamal rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 181.2.3-cü (quldurluq, yaşayış sahəsinə qanunsuz olaraq girməklə törədildikdə) maddəsi ilə cinayət işi başlanıb.

Həyata keçirilmiş tədbirlər nəticəsində Yalçın Ramazanov və Nəzrin Əliyeva cinayəti törətməkdə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunublar. Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir. (Region TV)


### Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016

# "Növbədənkənar seçkilərlə bağlı deyilənlər kimlərisə şirnikləndirmək üçün ortaya atılan xülyadır"

## Siyavuş Novruzov: "Konstitusiya dəyişikliklərini Türkiyədəki qiyamla əlaqələndirmək yersizdir"

**Sentyabrın 26-na təyin olunmuş konstitusiya dəyişiklikləri ilə bağlı referendumda təbliğat-təşviqat kampaniyasının başlanmasına bir ay qaldı. Hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, deputat Siyavuş Novruzovla müsahibəmizdə əsasən bu mövzudan danışdıq.**

***- Siyavuş bəy, referendum ideyasının haradan irəli gəldiyi barədə müxtəlif təxminlər var. Daha çox vurğulanan budur ki, referendum qərarı bölgədə baş verən gərgin ictimai-siyasi, hətta hərbi çevrilişlərlə müşayiət olunan hadisələrin fonunda verilib. Sizin bununla bağlı arqumentləriniz nədən ibarətdir?***

- Yox, elə deyil. Referendumun ortaya çıxma zərurəti tam ölkənin iqtisadi inkişafı, dövlət quruculuğunun təkmilləşdirilməsi, təhlükəsizlik sisteminin möhkəmlənməsi, Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalardan irəli gələn məsələlərlə əlaqədardır. Həmçinin insan hüquq və azadlıqlarının daha da möhkəmlənməsi, o cümlədən müxtəlif instansiyalarda, habelə dövlət qurumlarında və bələdiyyələrdə vətəndaşların müraciətlərinin cavablandırılması və s. məsələlər zərurət yaradırdı ki, konstitusiyanın müvafiq maddələrində dəyişiklik edilsin. O cümlədən müəyyən yaş senzləri ilə bağlı müvafiq addımlar atılmalıdır ki, insanlar sərbəst şəkildə özlərinin seçmək və seçilmək hüququndan istifadə etsin. Yəni burada hər hansı dövlətin ərazisində baş verən hadisə ilə əlaqədən söhbət gedə bilməz. Bu dəyişikliklərlə bağlı əks mövqedə olanlar beynəlxalq hüquq və normalara, Avropa prinsiplərinə uyğun olmayan heç bir nümunə göstərə bilmirlər, onların dedikləri ümumi söz yığınından ibarətdir və referenduma ehtiyac olmadığını hüquqi cəhətdən əsaslandıra bilmirlər. Referendum lazımdır, zəruridir və keçirilməlidir.

***- Konstitusiya dəyişiklikləri qərarı Türkiyədə baş verənlərlə üst-üstə düşdü deyə, bəziləri çox uzağa gedən nəticələr çıxartdı. Bu barədə nə deyə bilərsiniz?***

- Konstitusiyada dəyişiklik etdin, ya etmədin, dövlət çevrilişi cəhdinin qarşısını almaq onsuz da dövlətin vəzifəsidir. Azərbaycan Respublikasının Konstitusiyasında da bu, öz əksini tapıb. O baxımdan bundan ötrü konstitusiya dəyişməyə zərurət olduğu barədə fikri kim, hardan çıxarır, mən bunu başa düşə bilmirəm. Düzdür, Türkiyədə bu hadisələr 15 iyulda başladı, konstitusiya dəyişiklikləri ilə bağlı müraciət isə ayın 16-sında oldu. Lakin Türkiyədə hadisələr baş verənə qədər artıq bizdə konstitusiya dəyişiklikləri ilə bağlı məsələ nəzərdə tutulurdu, bunun üzərində iş gedirdi, yeni düzəlişlərin həyata keçirilməsi barədə proses çox-çox qabaqdan başlamışdı. Dövlətin bilavasitə vəzifəsidir ki, Azərbaycan dövlətinə, vətəndaşına qarşı hər hansı bir təhdid olduğu halda bunun qarşısını alsın. 1993-cü ilin iyun hadisələrində deyilirdi ki, Surət qiyam qaldırdı və s. Dövlətin borcu qiyamın qarşısını almaq idi. Ala bilmirsə, vətəndaşın təhlükəsizliyini təmin edə bilmirsə, artıq onun dövlətçiliyindən, yaxud vəzifəli şəxsin vəzifəsindən söhbət gedə bilməz. Yəni bu, konstitusion normadır və var. Odur ki, Azərbaycandakı konstitusiya dəyişikliklərini Türkiyədəki qiyamla əlaqələndirmək yersizdir.

**"Hakim partiya daxilində hər hansı narazılıq yoxdur, bunlar hamısı yanlış məlumatlardır"**

***- Fətullah Gülənin tərəfdarları Azərbaycana necə, təhlükə yaradırlarmı?***

- Azərbaycanda heç bir təhlükə yoxdur. Azərbaycanda kifayət qədər tolerantlıq hökm sürür və qanunla qadağan olmayan təriqətlər də fəaliyyətdədir. Yeni Azərbaycanda daim dinə yanaşma tam demokratik şəkildə və tolerant olub. Hətta sovet dövründə Azərbaycanda dini qadağalar qoyulanda burada insanlarımız gizlində və ya açıq şəkildə öz dini inanclarını yerinə yetirirdilər. İndi də hər kəs düşüncəli şəkildə bunu yerinə yetirir. Təbii ki, ayrı-ayrı qruplar, dövlətlər var ki, insanları ələ almaqla, şirnikləndirməklə qatı ekstremist təriqətlər ortaya çıxartmağa çalışırlar. Amma bu, Azərbaycanda baş tutan məsələ deyil. Birincisi, Azərbaycan xalqının müdrikliyü, ikincisi qanunun aliliyi, hüquq-mühafizə sisteminin güclü şəkildə işləməsi və insanların bir-birini tanıması və bir-birinə hörmətlə yanaşması məsələləri var. O baxımdan da Azərbaycanda bu cür hallar mümkün deyil. Ara-sıra hansısa hallar müşahidə olunur. Görürsən kimsə aldadılıb, aparılıb hansısa qanunsuz silahlı birləşmələrin tərkibinə, sonradan peşman olub qayıdıb. Yaxud kəşfiyyat orqanları götürüb din pərdəsi altında aparıb silahdan istifadə qaydaları ilə bağlı təlimlər keçiblər. Təbii ki, bu kimi faktların üstü hüquq-mühafizə orqanları tərəfindən açılır və məhkəmələrdə də hökmlər çıxarılır.

***- Yəni siz əminsinizmi ki, Fətullah Gülənin tərəfdarları Azərbaycan üçün təhlükəli deyil?***

- Heç bir təhlükə törətmirlər. Birincisi, belə tərəfdarlar yoxdur, mən görmürəm. Digər tərəfdən, bizim dini etiqad azadlığı və dini ekstremizmə qarşı mübarizə haqqında qanunlarımız var. Bu qanunlarla da belə meyllər olacaqsa belə, qarşısı alınacaq.

***- Bir aydan sonra başlayacaq təbliğat-təşviqat kampaniyasında siyasi təşkilatlara bərabər imkanların yaradılması ilə bağlı hansısa yeniliklər nəzərdə tutulurmu?***

- Referendum haqqında qanunda, Seçki Məcəlləsində belədir ki, burada siyasi partiyalar bilavasitə partiya kimi yox, təşəbbüs qrupu kimi iştirak edirlər. Yəni YAP burada Yeni Azərbaycan Referendum üzrə Təşəbbüs Qrupu, qeydiyyatdan keçdikdən sonra isə Təşviqat Qrupu kimi fəaliyyət göstərəcək. İstənilən siyasi partiya, QHT, yaxud bir qrup insan yığışır, ilkin təşəbbüsçüləri müəyyənləşdirirlər, toplantını keçirirlər. Bunlar respublika üzrə təşviqat aparmaq istəyirlərsə, sayları 2 mindən çox olmalıdır. Hər hansı bir dairə üzrə isə təşəbbüsçülərin sayı 500-ə yaxın olmalıdır. Müvafiq sənədləri MSK-ya təqdim edirlər, MSK onlara imza vərəqi verir. 40 mindən artıq imza toplayandan sonra qeydiyyatdan keçirlər. İmza toplayıb qeydiyyatdan keçdikdən sonra isə istənilən vətəndaş referendumla bağlı ölkənin bütün ərazisində təşviqat apara bilər.

***- Siyavuş bəy, beynəlxalq təşkilatların Azərbaycandakı referendum qərarına və hazırlıqlara ənənəvi münasibətdən fərqli yanaşması təəccüb doğurur...***

- Birincisi, bu, Azərbaycan xalqının iradəsinin ifadəsidir. Yəni xalq istəyəcəksə, buna səs verəcək, istəməyəcəksə, verməyəcək. Digər tərəfdən də burada qeyri-adi bir şey yoxdur. Əksinə, hüquq və azadlıqların qorunması üçün çox tutarlı addımlar var. Burada 29 əlavə və dəyişiklik var. Bu maddələrin 25-26-sı da insan hüquqları ilə bağlıdır və bu məsələ daha da gücləndirilir. Ona görə də hansı iraddan söhbət gedə, hansı irad tutula bilər? İkincisi tərəfdən də, hər bir ölkənin ali qanunvericiliyi var. Bu qanunvericilik müəyyənləşdiriləndə, yazılanda xalqın mədəniyyəti, tarixi, dəyərləri və digər məsələlər öz əksini tapır. Əgər dünyada vahid konstitusiya mövcud olsaydı, elə bütün ölkələr ABŞ-ın Konstitusiyasını götürərdi, çap edərdi, deyərdi "bu, mənim konstitusiyamdır". Hətta Avropa Birliyinə daxil olan ölkələrdə qurumun özünün normativ hüquqi aktlarının olmasına baxmayaraq, hər bir ölkənin konstitusiyası var. Sovetlər birliyində də SSRİ Konstitusiyası ilə yanaşı, hər bir respublikanın konstitusiyası var idi və bunlar bir-birindən fərqlənirdi. Hansısa ekspertin konstitusiya barədə rəy verməsi artıq xalqın maraqlarına toxunmaqdır. Xalq səs verir, qəbul edir, yaxud da əleyhinə çıxır, qəbul etmir.

**"Xalq istəyəcəksə, buna səs verəcək, istəməyəcəksə, verməyəcək"**



***- Deputatlıq üçün yaşın 18-ə endirilməsi də diqqət çəkir. Vətəndaşın hələ ali təhsil almadan parlamentdə təmsil olunmasına imkan yaradılması birmənalı qəbul olunmur.***

- Bunu deyən nə konstitusiyanı, nə Seçki Məcəlləsini bilir, nə də seçki təcrübəsi var. Azərbaycanda 5 milyona yaxın seçici var. O 5 milyonun 3 milyon 100 mininin yaşı 35-ə qədərdir. Yəni 35-dən yuxarı yaşı olan insanların sayı təqribən 1 milyon 900 min nəfərdir. Yəni 3 milyon 100 min seçicinin hüququ bu və ya digər şəkildə pozulur. Nədə pozulur? Seçkidə iştirakda. Yəni 18 yaşda səs verə bilir, alqı-satqı edə, nikaha daxil ola, təhsil ala bilər. Amma seçilə bilməz. Burada söhbət ondan gedir ki, elə 18 yaşı olan kimi ona səs verəcəklər, seçiləcək. Bu, nədən irəli gəldi? Məsələn, bir gəncin yaşı 24,5-dir. Seçki ərəfəsində insanlar onu seçmək istəyir, savadı da var, təhsili də. Lakin qoyulan müddət ona seçilmək imkanı vermir. Deməli, o, 5 il 3 ay gözləməlidir ki, növbəti seçkidə namizədliyini irəli sürsün. İkinci tərəfdən, parlament seçkilərində ali təhsil məsələsi qoyulmur. Bu məsələ prezident seçkilərinə, Konstitusiya Məhkəməsinə və baş nazirliyə aiddir. Amma qalan strukturlara, istər bələdiyyə, istər parlament seçkilərinə seçilmək məsələsində ali təhsil məsələsi yoxdur. Əgər insanın şüuru yetkindirsə, 18 yaşı tamam olubsa, seçmək-seçilmək hüququ varsa, öz namizədliyini irəli sürə bilər. Seçici onu seçə də bilər, seçməyə də bilər. Vaxtilə anormal bir hal idi ki, deyirdilər 65 yaşdan yuxarı yaşı olan şəxslər prezident seçilə bilməz. Bunu seçici müəyyənləşdirir və məhdudiyyət yolverilməzdir.

***- Bəs prezidentlik yaşının 35-dən 30-a endirilməsi hansı zərurətdən irəli gəldi?***

- O da dünyanın bir çox ölkələrində var. Finlandiyada buna 18, Fransada 21 yaşda icazə verilir. Başqa-başqa dövlətlərdə, ümumiyyətlə, yasaq yoxdur, 18 yaşına çatdısa, istənilən növ seçkidə iştirak edə bilər. Bunu xalq müəyyənləşdirir ki, 18 yaşında olan namizədə səs verək, ya yox. Son prezident seçkilərində 50-yə yaxın iddiaçı müraciət etmişdi. Ancaq onların böyük əksəriyyəti lazım olan sənədləri və imzaları toplayıb təqdim edə bilmədi, 7 namizəd mübarizə apardı. Onda belə çıxır ki, 5 milyon insan seçkilərdə namizədliyini irəli sürəcək? Təbii ki, yox. 35 yaşla bağlı maddə olanda 2 milyon insanın içərisindən cəmi 50-si irəli çıxmışdı. Onların da 5-ni yoxlayıb gördülər ki, psixi problemləri var, dispanserdə qeydiyyatda olublar. Ağıllı, düşüncəli adam bilir ki, namizədliyini irəli sürə bilər, ya yox. Amma bunu qanunla məhdudlaşdırmaq insan hüquqlarının pozulması deməkdir.

***- Konkretləşdirsək, deyə bilərikmi ki, növbəti prezident seçkilərində də hazırkı prezident İlham Əliyev hakim partiyanın namizədi olacaq?***

- Təbii ki. Düzdür, hələ partiyada müzakirələr getmir. Çünki qarşıda kifayət qədər zaman var. YAP mütəmadi olaraq öz namizədini müəyyənləşdirir və irəli sürür.

***- Hər halda, YAP-da prezident seçkiləri ilə bağlı ikinci bir namizədin olması ilə bağlı müzakirələr getmir, eləmi?***

- Belə bir müzakirələr yoxdur, oluna da bilməz. Prezident seçkilərindən hələ cəmi 2 il yarım vaxt keçib.

***- Bu cür iddialar da var ki, referendumdan sonra növbədənkənar parlament və prezident seçkiləri keçirilə bilər. Bu, mümkündürmü?***

- Növbədənkənar seçkilərin keçirilməsi bizim konstitusiyada əvvəl də var idi, indi də var. Seçkilər isə azad və demokratik şəkildə keçirilib. Növbədənkənar seçkilərlə bağlı deyilənlərsə kimlərisə şirnikləndirmək üçün ortaya atılan xülyadır. Prezident də seçilib, parlament də və onların öz müddəti var, bu müddət də başa çatmalıdır.

**"Prezident də seçilib, parlament də və onların öz müddəti var, bu müddət də başa çatmalıdır"**

***- Hakim partiya daxilində narazılıqların olması, hətta referendum ideyasının həm də burdan qaynaqlandığı barədə iddialar səslənir...***

- Qəti şəkildə. Hakim partiya daxilində hər hansı narazılıq yoxdur, bunlar hamısı yanlış məlumatlardır.

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016



# Vəkilin Naxçıvanın abadlığı haqda dedikləri mübahisə yaratdı

## **Novella Cəfəroğlu:** "Ora doğrudan da Vasif Talıbov kimi bir adam lazımdır ki, Naxçıvanı saxlaya bilsin..."

**Son zamanlar Naxçıvanda aparılan abadlıq işləri media tərəfindən tez-tez işıqlandırılır. Bununla əlaqədar sosial şəbəkələrdə də tanınmış simalar fikirlər bildirib, Naxçıvanın son zamanlar xeyli abadlaşdırıldığına diqqət çəkirlər.**

Buna misal olaraq bugünlərdə vəkil Namizəd Səfərovun sosial şəbəkədə yazdığı statusu göstərə bilərik. Vəkil bildirib: "10 gün idi ki, Naxçıvanda idim. Hər yeri qarış-qarış gəzdim. Təəccübümü heç cür gizlədə bilmirəm. Gəldiyim ümumi nəticə budur ki, Naxçıvan dünyanın tanıdığım ən abad diyarıdır. Bir sözlə, heyran qaldım".

Lakin Namizəd Səfərovun bu fikirləri digər sosial şəbəkə istifadəçiləri tərəfindən birmənalı qarşılanmayıb. İnsanlar daha çox bu məqamı vurğulayıblar ki, Naxçıvanda abadlıq işləri aparılsa da, insan haqları tapdalanır. Həmçinin qeyd olunub ki, burada insanların yaşayış səviyyəsi, maddi vəziyyətləri də aşağı həddədir.

**Xüsusilə Naxçıvanda işsizliyin olması daha çox vurğulanıb. Misal üçün, Mübariz Rza adlı istifadəçi bildirib:** "Ən ucqar kəndlərdən biri olan Şərur rayonunun Y.Yaycı və Şahbulaq kəndlərinə ömründə ilk dəfə olaraq asfalt və qaz çəkilib. Zibil maşınları hər həftə kəndin zibilini təmizləyir. Bunlar faktlardır. Lakin kənd əhalisinin beşdə biri kənddə yaşamır. İşsizlikdən ya Türkiyənin, ya da ki, Bakının küçələrində iş axtarırlar. Bu da bir başqa faktdır".

**Eləcə də tarixçi Altay Göyüşov bu kimi məqamlara diqqət çəkərək yazıb:** "Bəs o "abadlığın" nəyin hesabına əldə olunması məsələsi? Ona qalsa, Hitler Almaniyasında, Stalin Rusiyasinda az abadlıq olmayıb".

**N. Səfərov rəylərdə də yuxarıdakı fikrini təsdiqləyərək qeyd edib ki, ən ucqar kənd yollarına belə asfalt döşənib:** "Bütün kəndlərdə ikimərtəbəli müasir məktəblər tikilib. Fakt odur ki, hər yer abadlıqdır, yaşıllığa qərq olub. Bunu digər rayonlarda niyə etmirlər, təəccüblü olan budur? Kəndlərdən zibil mərkəzləşmiş qaydada daşınır. Hər yer təmizlik nümunəsidir. Burada yerə zibil atılmır".

**Məsələ ilə bağlı ictimaiyyətdə tanınan digər naxçıvanlıların da fikirlərini aldıq. Hüquq müdafiəçisi Novella Cəfəroğlu bildirdi ki, son zamanlar Naxçıvana getməsə də orada yaşayan qohumlarından razılıqlar eşidir:** "Bizim qohumlar Naxçıvanda yaşayırlar, onların hamısı razılıq edirlər. Naxçıvan ərazi baxımdan da elə bir yerdədir ki, bir tərəfi Türkiyə, digər tərəfi İran, Ermənistandır. Ora doğrudan da Vasif Talıbov kimi bir adam lazımdır ki, Naxçıvanı saxlaya bilsin. Bu gün, doğrudur, insan haqları pozulur, çox adam Naxçıvandan çıxıb Bakıya gəlib. Ancaq bütün bunların da düzəlməsi üçün zaman lazımdır. Zaman gələcək, bunlar da düzələcək - baxmayaraq ki, məni Naxçıvanda döyürdülər, indi də ora gedəndə arxamca məni izləməsi üçün adam salırlar. Bütün bunlara baxmayaraq, deyirəm ki, Naxçıvana Talıbov kimi adam lazım idi. İstəyirlər məni söysünlər, ya nə deyirlər desinlər. Ən çox əzabı Naxçıvanda mən çəkmişəm. Bu faktdır ki, bizim qohumlar oradan razılıq edirlər".

**Naxçıvanda tez-tez olan jurnalist Çingiz Özgürün də oradakı hazırkı vəziyyətlə bağlı fikrini aldıq. Ç. Özgür bildirdi ki, Naxçıvanda xüsusi təmizlik qaydaları var:** "Küçələr yuyulur, taksi sürücülərinin hamısı formadadır. Heç kim siqareti belə küçəyə ata bilməz. Şəhərin özü Avropanın balaca bir qəsəbəsi kimidir. Abadlığına söz ora bilməz. Deyilən digər məsələlərin abadlığa nə aidiyyəti var? Naxçıvanda kiminsə hüzrü düşəndə nə qəbir yerinə, nə də yas yerinə ölü yiyəsinin heç bir xərci çıxmaya bilər. Maşınla da təmin olunur, məscidlərdə də pulsuz yas saxlamaq üçün yer verilir. On ildən çoxdur ki, Naxçıvanda belədir. Naxçıvanın ən ucqar kəndinə belə fasiləsiz qaz verilir. 4-5 ildir ki, bu belədir".

❑ **Əli RAİS**

# Səlim Müslümovun korrupsiya ocaqlarından biri söndürülür

## Ünvanlı sosial yardım adı altında baş verən qanunsuzluqları dayandırmaq mümkün olmadığından, prezident məsələyə kəskin mövqe bildirib; əmək və əhalinin sosial müdafiəsi nazirinin yaratdığı rüşvət mexanizmi kökündən qazınır; nazirlik isə iddia edir ki...

**Aztəminatlı ailələrin güzəranının yaxşılaşması üçün nəzərdə tutulmuş ünvanlı sosial yardım dövrü artıq başa çatır. On il fəaliyyət göstərən bu layihənin ləğv olunacağı bildirilir. Ölkədə ünvanlı sosial yardımın verilməsinə 2006-cı ildən start verilib. Bu yardımın verilməsində əsas məqsəd aztəminatlı ailələrin maddi şəraitinin yaxşılaşdırılmasıdır.**




Ünvanlı sosial yardımın təyin olunması üçün hər il ehtiyac meyarı haqqında qanun qəbul edilir. Hazırda ehtiyac meyarı 105 AZN məbləğində müəyyən olunub. Bu o deməkdir ki, ailə üzvlərinin hər birinin ehtiyac meyarının cəmindən az gəliri olduqda aradakı fərq qədər ünvanlı sosial yardım təyin olunur və bir il müddətinə nəzərdə tutulur.

**Bugünlərdə ölkə başçısı İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının nəticələrinə və qarşıya qoyulmuş vəzifələrə dair iclasında insanlara ünvanlı sosial yardımın verilməsi ilə bağlı məsələyə toxunub. Ölkə başçısı bildirib ki, artıq ünvanlı sosial yardımdan imtina etməyin vaxtıdır:** "Biz ünvanlı sosial yardımla bağlı layihəni aztəminatlı insanların şəraitinin yaxşılaşması üçün nəzərdə tutmuşuq. Hazırda 200 min ailə ünvanlı sosial yardım alır. Amma ünvanlı sosial yardım insanlarda asılılıq yaradır və bu, gələcəkdə daha da təhlükəli ola bilər. Bunun üçün biz o aztəminatlı ailələr üçün şərait yaratmalıyıq ki, onlar özləri pul qazansınlar, özləri işlə məşğul olsunlar. Çünki bəzi hallarda dövlət sektorunda açılmış iş yerlərinə o qədər də böyük maraq göstərilmir. Bəziləri deyirlər ki, mən dövlətdən yardım alıram, niyə gedib işləməliyəm? Bu, yaxşı hal deyil. Bu, ələbaxımlıq yaradır. Ələbaxımlıq da gələcəkdə çox böyük problem ola bilər".

Prezident həmçinin onu da qeyd edib ki, gələcəkdə dövlət aztəminatlı ailələrin dəstəklənməsi üçün ünvanlı yardımın formalarına dəyişiklik edə bilər. Bu səbəbdən aztəminatlı ailələrə öz biznesini yaratmaq üçün dəstək veriləcək. Bununla da ünvanlı sosial yardımdan asılılıq aradan qaldırılacaq.

**Məsələ ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Vahid Əhmədov "Cümhuriyyət"ə açıqlamasında bildirib ki, bu məsələdə söhbət ünvanlı sosial yardımın ləğvindən getmir:** "Məşğulluq məsələsi həll olunmayan insanlara ünvanlı sosial yardım yenə də veriləcək. Amma indi pilot layihələr həyata keçirilir. Artıq iki rayonda bu layihələrə start verilib və 11 rayonda da həyata keçməlidir. Gələcəkdə də bu layihə əgər uğurlu olsa, davam etdiriləcək. Burada məsələ ondan ibarətdir ki, prezident özünün ehtiyat fondundan 6 milyon manat vəsait ayırıb ki, bu pilot layihə vasitəsilə insanlara iş yerləri təşkil olunur. Təmin edilən iş yerləri ilə bağlı insanlara bildirilir ki, bu sahədə işləyib özünü dolandırmalısan. Hərənin maraq göstərdiyi sahə üzrə işlərə cəlb olunması nəzərdə tutulur. Çoxdan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu layihəsi var və həyata keçirilir. Bu proses ələbaxımlılığın aradan götürülməsi üçün nəzərdə tutulub. Mən bu layihəni çox müsbət hesab edirəm. Bir var ki, ələbaxımlılıq olsun, camaat işləmək istəməsin və rahat olsun ki, dövlətdən yardım alacaq. Bir də var ki, insana ömürlük iş yeri və onunla məşğul olması üçün şərait yaradılır. Bu, çox mütərəqqi addımdır və Azərbaycan üçün müsbət nəticəsini verəcək".

**İqtisadçının sözlərinə görə, ünvanlı sosial yardım yeni start veriləcək pilot layihə ilə əvəzlənəcək:** "Birdən-birə pilot layihəyə keçid olmayacaq, yəni buna zaman-zaman gediləcək. 3-5 il ərzində buna gedəcək olan insanlara həmin layihə üzrə şərait yaradılacaq. Əgər bu layihəyə gedənlər arasında artım olsa və uğurlu davam etsə, həmin insan ünvanlı sosial yardımdan çıxarılacaq".

Əslində ünvanlı sosial yardımların verilməsi ilə bağlı tez-tez müxtəlif səpkili şikayətlər ictimailəşir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial yardımların verilməsində çətinliklər yaradılması, həmçinin bir neçə ayın yardımının yardımı düzəldən qurum və məmurlar tərəfindən alınması kimi məsələlər mətbuata çıxsa da, problem həllini tapmayıb.

"Yeni Müsavat"a özəl mənbələrdən daxil olan məlumatda bildirilir ki, sabiq nazir Füzuli Ələkbərovun vaxtından ünvanlı sosial yardımın verilməsində şəffaflığı təmin etmək mümkün olmayıb. 2013-cü ildə prezident fərmanı ilə əmək və əhalinin sosial müdafiəsi naziri təyin olunan Səlim Müslümov bu sahədəki korrupsiya ocaqlarını söndürmək işinə girişdiyi görüntüsü yaratmışdı. O, tez-tez keçirdiyi müşavirələrdə şou xarakterli olaylar çıxarırdı. Bir neçə idarə müdirini, rəhbər işçini elə iclas zalından qovaraq işdən çıxartdığını bəyan edirdi. Sonra ƏƏSMN-də hər şey "köhnə hamam, köhnə tas" formasında davam etdi. ÜSY-ların verilməsində ciddi qanun pozuntuları halları oldu. Yerlərdən gələn şikayətlərdə bildirilir ki, ƏƏSMN regional şöbələrində ünvanlı sosial yardım alanlara belə təklif olunur: **"Altı ay bizim, 6 ay sənin".** Dövlətin pulunun bu şəkildə mənimsənilməsi heç şübhəsiz dövlət rəhbərliyinin də qulağına çatırdı. Mənbələr iddia edir ki, prezidentin məlum çıxışı da məhz Səlim Müslümovun və onun komandasının korrupsiya ocağının söndürülməsi üçün nəzərdə tutulub. Ona görə də ÜSY-nin forması dəyişdirilir.

***

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ünvanlı sosial yardımın kəsiləcəyi barədə fikirlərə münasibət bildirib. Nazirlikdən "Yeni Müsavat"a göndərilən məlumatda bildirilir ki, həmin proqram aztəminatlı ailələrin yoxsulluqdan çıxmasını şərtləndirmir.** "Ölkəmizdə aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı proqramı ilə əhatə olunması, həmin ailələrə bu yardımların təyin olunması və ödənişi prosesi davam etdirilir. Prezident İlham Əliyevin 23 fevral 2015-ci il tarixli fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaradılmış və cari il fevral ayının 15-dən tətbiqinə başlanmış Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi vasitəsilə aztəminatlı ailələr ünvanlı dövlət sosial yardımından heç bir məmur müdaxiləsi mümkün olmadan, tam şəffaf şəraitdə faydalanırlar", - deyə ƏƏSMN-in İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev bildirib.

O, bununla belə, ayrı-ayrı KİV-lərdə guya ünvanlı dövlət sosial yardımı proqramının dayandırılması barədə məlumatların yer aldığını və həmin məlumatların əsassız, şayiə xarakterli olduğunu və ictimai rəyi çaşdırmağa yönəldiyini diqqətə çatdırıb

**Ünvanlı dövlət sosial yardımı proqramının aztəminatlı ailələrin yoxsulluğun çətinliklərindən qorunmasına yönəldiyini qeyd edən E.Babayev bildirib ki, bununla belə, həmin proqram aztəminatlı ailələrin yoxsulluqdan çıxmasını şərtləndirmir:** "Ona görə də belə ailələr sırasından müvafiq potensialları olan ailələrin özünüməşğulluğuna, beləliklə, yoxsulluq vəziyyətindən çıxmalarına şərait yaradılması hazırda əsas fəaliyyət istiqamətlərindən biridir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016

# Rusiya öz marionetini aşağıladı - reaksiya sıfır!




## Sərkisyan Jirinovskinin tüpürcəyini necə yaladı...

### Kremlin danışan dilinin Ermənistan haqda alçaldıcı sözlərinə İrəvanın susqun reaksiyasının ilginc səbəbi; rusiyalı siyasətçinin dediklərinə heç bir rəsmi etirazın olmamasına daxildən etirazlar gəldi; **erməni şərhçi:** "Moskvaya nota göndərməli idik..."

**Rusiya Liberal-Demokrat Partiyasının sədri, Dövlət Dumasının vitse-spikeri V.Jirinovskinin life.ru kanalına sensasion müsahibəsi haqda məlumat verilib. Kremlin danışan dillərindən sayılan Jirinovski müsahibədə işğalçı Ermənistan haqda sərt, aşağılayıcı sözlər işlədib.**

**Həmin dialoqu bir daha yada salaq:**

**"Aparıcı:** Vladimir Volfoviç, Amerika uzaqdır, Ermənistan isə yaxın. Ermənistanda baş verənləri xarakterizə edin...

**V.Jirinovski:** Tüpürüm Ermənistana...

**Aparıcı:** Nə danışırsınız?

**V.Jirinovski:** ...Orada müntəzəm olaraq çıxışlar olacaq. Balaca ölkədir, dağlıq ölkədir, dağların arasında, Türkiyə və Azərbaycanın arasında sıxışıb, heç bir perspektiv, heç bir iqtisadiyyat yoxdur. Orada artıq bir milyon erməni qalıb. Dünyada isə cəmi 6 milyondurlar. Hamısı qaçıb. Livan, İran, Rusiya, Fransa, Ştatlar-hər yerdə gəzirlər. Ermənistanda yaşamağa yer yoxdur - dağlardır. Təbii ki, orada müxtəlif qruplaşmalar bir-birinə qarşı nəsə edəcək.

**Aparıcı:** Yaxşı, axı orada bizim baza var, o, bizim strateji partnyorumuzdur, yəni strateji partnyora necə tüpürmək olar?

**V.Jirinovski:** Siz Allah bəsdirin! Bax budur, bizə tüpürəcəklər - bazamızı götürəcəyik. Diz çöküb yalvaracaqlar ki, bazanı qaytaraq. Bu baza onların xilasıdır, əks halda, iki tərəfdən türklərlə azərbaycanlılar onları yer üzündən siləcək. Ona görə də Ermənistan haqda narahat olmağa dəyməz. Onlar bizdən heç yana qaçan deyil, çünki bu halda onların sonu çatacaq, tam sonu çatacaq. Azərbaycanlılar dərhal Qarabağı götürəcəklər, türklər kömək edəcək. Üç yüz il əvvəl erməniləri II Yekatrina xilas edib".

***

Maraqlıdır ki, Jirinovskinin bu təhqiramiz fikirlərinə rəsmi İrəvan heç bir reaksiya, etiraz bildirməyib. Halbuki o, qeyd olunduğu kimi, sıradan biri deyil, Rusiya Dövlət Dumasının sədr müavinidir, üstəlik, Kremlin sözçülərindən sayılır.

Reaksiya həm də ona görə vacib idi ki, LDPR sədri faktiki surətdə Ermənistanın Rusiyanın bir quberniyası, vassalı olduğunu xüsusi qeyd edib, bu adda dövlətin Rusiyasız mövcud ola bilməyəcəyini vurğulayıb. Və təbii ki, həqiqəti söyləyib - hansını ki, hamı bilir. Həmçinin də erməni ictimaiyyəti.

**Məsələ ilə bağlı müxalifyönlü Iragir.am portalında erməni siyasi şərhçi Akop Badalyan hiddətlə yazıb:** "Rusiya Dövlət Dumasının deputatı Vladimir Jirinovski bəyan edib ki, "Tüpürüm Ermənistana, Ermənistan Rusiyasız keçinə bilməz və o, Rusiyanın ayağına düşəcək ki, hərbi bazanı qaytarsın - əgər birdən həmin bazanı çıxarsalar... Faktiki surətdə bununla Rusiyanın Ermənistan haqda, "Sosna tsrer"in oğlanları haqda (polis binasını tutan terrorçular nəzərdə tutulur -red.) nə düşündüyü ortaya qoyulur. Yəni bizə demək istəyirlər ki, Rusiyadan ayrılıb hara qaça bilərsiz ki? Üstəlik, bu zaman Ermənistana tüpürülür".

**Şərhçi ardınca məsələyə Ermənistan rəhbərliyinin passiv münasibətini tənqid edərək bildirir:** "Jirinovski Dumanın deputatıdır, dövlət xadimidir və o, Ermənistanı təhqir edib. Ermənistan XİN isə bəyan edir ki, belə şəxslərin fikirlərini şərh eləməyə dəyməz. Bəs dövlət xadimlərinin də bəyanatlarını şərh eləmək lazım deyilsə, kimin bəyanatlarına reaksiya verməl gərəkdir? Ermənistan Rusiyaya rəsmi nota təqdim edərək, ondan Duma deputatını intizama dəvət etməyə çağırmağı tələb eləməlidir ki, növbəti dəfə o, öz həddini bilsin. Bu, özünə hörmət edən dövlətin görməli olduğu minimum işdir".

***

Elə iş də ondadır ki, Ermənistan adında dövlət çoxdan yalnız xəritədə, simvolik olaraq mövcuddur. Belə vassal-dövlətin özünə hörmət qoyması, kiməsə etiraz nota verməsi qeyri-mümkündür. Dövlətin özünə hörmət qoyması üçün də ilk növbədə o, müstəqil olmalı, müstəqil xarici siyasət kursu yürütməlidir. Ermənistanın isə hətta xarici sərhədlərini də, hava məkanını da ruslar qoruyur.

Vassalın, kölənin qüruru, etiraz hüququ olmaz. Bir tanınmış rusiyalı ekspertin sərrast vurğuladığı kimi, Qarabağ məsələsi qaldıqca ermənilərin Moskvadan asılılığı, başqa sözlə, köləliyi qalacaq və güclənəcək. Buna görə bədxah qonşular özlərini qınamalıdırlar. Ermənistan, erməni xalqı ona hörmət qoyulmasını istəyirsə, öncə bu asılılıqdan və kölelikdən qurtulmalıdır.

Yolu bəlli: Azərbaycana qarşı işğalçılıq siyasətinə son qoymaq, Qarabağı sahibinə qaytarmaq, bütün qonşulara qarşı əsassız ərazi iddialarından əl çəkmək. Bu, olmayınca, jirinovskilər Ermənistana hələ çox tüpürəcəklər, Ermənistanın Sərkisyan kimi marionet liderləri də rus tüpürcəyini yalamalı olacaqlar...

❑ **Siyasət şöbəsi**



# Erməni deputat xalqı üsyana səslədi

## "Ermənistanda yeni silahlı qruplaşmalar yarana bilər"

**"Əgər Ermənistanda normal siyasi proseslər vasitəsilə fövqəladə xarakterli məsələlərin həllinə nail olmasaq, ölkədə "Sasna çrer" adlı yeni silahlı qruplaşmalar yaranacaq".**

APA-nın "news.am" saytına istinadən verdiyi xəbərə görə, bunu Ermənistanın müxalif "İrs" partiyasının lideri Raffi Ovannisyan deyib.

O bildirib ki, hər bir Ermənistan vətəndaşı "Sasna çrer" üzvü ola bilər: "Lakin onlar bizim ölkəmizi işğal edən qalstuklu terrorçulara qarşı vuruşan antiterrorçular olacaq. Əgər indiki vəziyyətin dəyişməsinə nail olmasaq, o zaman heç kim sərhədlərimizdəki itkilərə təəccüblənməsin".

"İkinci üsyan mərhələsinin başlama vaxtı çatıb". Axar.az xəbər verir ki, bunu isə jurnalistlərə açıqlamasında erməni deputat Zarui Postancıyan söyləyib. Onun sözlərinə görə, bu üsyan qanlı olmamalıdır: "Biz heç kimin, hətta Serj Sərkisyanın qanını belə tələb etmirik. Biz Sərkisyan və onun quldurları olan polislərdən azad olmalıyıq. Bunun üçün bütün polislər muzdlu şəkildə ön cəbhəyə göndərilməlidir".

# Bizə günahı olmayan daş atsın - varmı?



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

Belə görünür, qısa fasilələrlə əleyhimizə aparılan şantaj-iftira kampaniyası, intriqalar hələ uzun çəkəcək. Çünki nə yazıqlar ki, siyasətdəki, mətbuatdakı bədxahlarımızın, çörəyi şərləməkdən çıxanların buna vaxtaşırı əşhədü ehtiyacı yaranır...

Yenə üstümüzə tökülüblər. 105 ildə Müsavata, onun imicinə vurulmayan zərbəni son ikicə ildə vurmağı bacaranlar öz ayıblarını görmək, nöqsan-səhvlərini analiz eləmək əvəzinə, təzədən köhnə palan içi tökməkdədirlər.

Təkrarlamayacağıq - jurnalist həmkarlarım, xüsusən də "Yeni Müsavat" media qrupunun rəhbəri Rauf Arifoğlu son iki gündə bu mövzuda kifayət qədər qələm çalıb, arqumentli, yerli-yataqlı yazıblar. Nə əlavə edək. Hamısının altından imzamı qoyuram.

Başa düşürük, basqılar, hədələr, hücumlar ən çox öndə gedənə, lider olanlara, lider qəzetə yönəlir. Bunu həmişə göz önünə alıb da doğru bildiyimiz yola davam edirik, edəcəyik - sağa-sola boylanmadan. Açığı, bir az da öyrəncəliyik. Bunlar bizi qorxutmayıb, qorxutmaz...

18 ildir fasiləsiz bu qəzetdəyəm, onun rəhbərliyinə daxil olan şəxslərdənəm. Ağlım, məntiqim, dinim-imanım da əlhəmdulillah, yerində. Yəni bu yolu yanlış, günah bilsəydim, çoxdan aralanmışdım. İş olan yerdə qüsur olar. Yalnız ölülər səhv eləmir. Amma və lakin baxırsan ki, bizi tənqid və təhqir edənlərdə nöqsan batmanladır. Üstəlik də qərəz. O zaman niyə yolumuza davam etməyək? Qoy bizə yalnız günahı olmayan daş atsın. Varmı beləsi?

Bəli, illərdir öndəyik. Çünki öncüllüyün məsuliyyətinin fərqindəyik. Bu məsuliyyətin nə olduğunu birinci olmağı bacarmayanlar bilməz. Ən əsası, öz çörəyimizi yeyirik, kimsənin minnətli əppəyini yox!! Qəlbi hiss basmışlar Allahsız yerə bunun əksini iddia edib cəmiyyəti uğursuz şəkildə inandırmağa çalışsalar da (Hələ bilinmir özləri hansı çörəyi yeyirlər).

Hər halda, əsas lakmus kağızı oxucu, onun münasibətidir. Demirikmi xalqın gözü tərəzidir? Bax, bizdən ötrü həmin o tərəzi önəmlidir, daima haqqımızda solo ittihamlar, hədyanlar söyləyən, zamanında bizim hesabımıza tanınan, məşhurlaşan, dərin "analizlər" aparan siyasətçiklər yox!

Yəni gerçək bu ki, bizi əlahəzrət oxucu tənqid eləsə də - buna təbii ki, normal baxırıq - yenə ən çox bizə ehtiyac duyur, öncə bizi arayır, bizim qəzetə, saytlara nəzər salır, öncə "Yeni Müsavat"ın nə düşündüyü, nə yazdığı ilə maraqlanır. Qısası, yazdıqlarımızın mötəbərliyinə inanır.

"Yeni Müsavat" daha çox partiya mövqeyindən çıxış edəndə də belə idi, hörmətli İsa Qəmbər onun təsisçisi olanda da belə idi, indi - müstəqil KİV olanda da belədir. Bu, bəyəm qəzetin kollektivinin, onun rəhbəri Rauf Arifoğlunun potensialı, intellekti, bacarığı, fədakarlığı haqda heç nə demir? Deyir - biriləri qısqanccasına boynuna almasa da. O zaman belə bacarığın, istedadın sahibləri niyə ac qalmalıdırlar ki?

Bizə qarşı oxucu diqqəti əlbəttə ki, böyük etimad, qiymətli ictimai güvəndir, dəyərdir - hansı ki, əfsuslar olsun, özünü siyasət uzmanları sayıb nüfuzlu bir mətbu orqana qarşı savaş açanlarda yoxdur, onlar etimad qıtlığı yaşayır, özü də təkcə cəmiyyət sarıdan yox. Ancaq günahkar biz deyilik axı!

Bəla da ondadır ki, hakimiyyət uğrunda mübarizə aparmalı olanlar, əsas hədəflərini dəyişib, olmayan güclərini bir aparıcı qəzetə qarşı yönəldiblər. Əslində anlaşılandır. Öz siyasi varlıqlarını başqa necə ortaya qoysunlar? Bitmiş, bitirilmiş kimidirlər. Siyasi potensialları ölkədə yeni gündəm yaratmağa yetərli deyil.

Bu da yəqin Azərbaycandakı acı siyasi gerçəkliyin başqa eybəcərliyidir ki, dünənin qos-qoca partiyasını - Müsavatı öz marginal maraqları hesabına cılızlaşdırıb az qala dərnək çərçivəsinə salanlar, onun neçə-neçə qaymağını təşkilatdan pərik salanlar, bolşeviklər kimi ağ-qaradan savayı rəng tanımayanlar "Yeni Müsavat" media qrupu ilə haqsız dava açmaqla gündəmdə qalmaq istəyirlər.

Cığallıqdı - özü də yekə, siyasətçiyə yaraşmayan cığallıq. Eyni zamanda özünə quyu qazmaqdır bu. Zira, mətbuata düşmən kəsilən siyasətçi uğura çata bilməz. Bu - aksiomdur, demokratik mübarizənin elementar qaydasıdır.

Biz də onu deyirik ki, bunu eləməyin, lütfən fikrimizi, enerjimizi lüzumsuz yerə yayındırmayın. İmkan verin ictimai missiyamızı - əlahəzrət oxucuya, xalqa xidmət missiyamızı davam etdirək. Kim bəyənmir, özü bilər. Məgər kimisə bəyənmədiyi telekanala, sayta baxmağa, bəyənmədiyi qəzeti oxumağa məcbur etmək olar?

İkinci yandan, guya bu bəyənməyənlərin özlərini kim bəyənir ki. Dəfələrlə yazmışıq, yenə yazmaq zorundayıq ki, qoy hərə doğru bildiyi yolla getsin, sonda kimin haqlı olduğunu onsuz da zaman göstərəcək. Amma indi son deyil, finiş deyil. Finişdə baxarıq.

Əgər ona kimi siyasi arenada qala bilsəniz.

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016



# Tuthatutun pərdəqabağı

Samir SARI

**Qardaş Türkiyədə artıq həkimləri feldşerlərə, məhkəmə hakimlərini futbol hakimlərinə qatıb tuturlar. Müəllimləri, "bu öyrətməndir, bu hocadır",- deyə ayırmırlar, hər ikisini basırlar içəri.**

Yekə bir proses gedir. Adı siyahıda olanları əlli bir, yüz bir aparırlar ağzıbirə. Siyahılar isə çox yoğun və uzundur.

Burda oturub demək olmaz ki, yox, düz eləmirlər, tuturlar. Heç "əcəb eləyib tuturlar" da demək olmaz. Nə işimizə qalıb? Biz AİHM-ik, "Freedom house"yik, nəyik?

Necə deyərlər, hər şeyi istintaq müəyyənləşdirəcək, məhkəmə həll edəcək. Tərs kimi, tutulanların arasında çoxlu müstəntiq də var. Dünən camaatı istintaq edənlərin bu gün özlərini istintaq edirlər. Dünən başqalarına hökm çıxaranlara bu gün müvəqqəti hökmlər çıxarıblar.

Keçmişdə bir prokuror Zəkəriyyə Öz vardı, TSK-nın respublikaçı generallarının hamısına ittihamnaməni o oxuyurdu, sonra "paralelçi" kimi ifşa olundu və aradan çıxdı, gah dedilər, Ermənistana qaçıb, gah da dedilər, Almaniyaya uçanda görüblər. Türkiyədə qalsaydı, hamıdan qabaq onu generallara tay edib qandallayacaqdılar.

General, admiral və polkovniklərin tutulmasının səbəbi aydındır, türkün sözü, darbə girişimi ediblər, çoxlu adam öldürüblər. 250-yə yaxın əliyalın insanın qətlə yetirilməsinə görə təxminən o sayda general və polkovnikin həbs edilməsi normaldır.

Ancaq 90 futbol hakiminin nə üstə tutulduğu insanlara qəribə gəlir. Deyilənə görə, gülənçi olublar, altdan-altdan Pensilvaniyaya işləyirmişlər. Amma gülənçi olub, nə ediblər? Bəlkə haqsız penalti veriblər, "Fənərbağça"nı "Kasımpaşa"ya uduzdurublar, ya Gökhan Könülə əsassız sarı kart veriblər? Hər halda, bütün bunları istintaq aydınlaşdıracaq.

Müsavatçı dostumuz Yadigar Sadıqov yazıb ki, "növbə təkər qaraldanlarındır". Yəni belə getsə, onları da tutacaqlar.

Bəs necə olsun, əgər təkərqaraldanlar radikal dini sektanın üzvüdürlərsə və darbə girişimi ediblərsə (məsələn, ola bilər, zirehli tarnsportyorların təkərini qaraldıblar), necə tutulmasınlar?

Zırıltı işdir, əşi, 80 milyonluq ölkədir, 20-30 min adamın tutulması nəmənə şeydir ki. Ağzımızda paralel dövlət deyirik. Gerçəkdən də baxırsan ki, hər daşın altından "paralelçilər" çıxır.

Qorxasan, onları sona qədər tutub qurtarmaq mümkün olmaya. Topasının cəmi 7 milyon adamdır, deyirlər. Yeddi milyonun yeddisini də tutmaq olar?

Hətta bu qədər tutqunun qabağında daha bir problem meydana çıxa bilər, məlum olar ki, tutulanların hamısına türmə çatmır. Hər ölkənin məhbəsində vakansiya bir yerə qədərdir axı, birdən-birə 20-30 min adamı növbədənkənar tutanda yer çatmaya bilər.

Amma bundan da çıxış yolu var. Bəs biz nə günün qardaşıyıq? Bizdə müasir standartlara cavab verən, dosta layiq türmələr tikilib istifadəyə verilib və öz ilk sakinlərini gözləyir.

Lüzum olsa (Lüzum Lazımın qohumudur, biləsiniz), biz öz türmələrimizi qardaş ölkənin paralelçi məhbuslarına verməliyik. İstər parasıyla, istərsə də bedava. Qoy, Türkiyə hökuməti üçdən-beşdən ödəsin, qardaş dustaqlar gəlib bizdə islah olsunlar.

Hərçənd axtarsaq, özümüzdə də xeyli paralelçi var. İyirmi ildən artıqdır ki, burada xain elan edilmiş şəbəkənin kollecləri, liseyləri məzun buraxır. Yəni onların heç olmasa 10 faizi şəbəkəyə qoşulmayıbmı? Kim bilir...

Düzdür, bizdə onları nə deyib tutmaq olar, bəlli deyil. Çünki o məzunlar, işıq evlərinin, türkün sözü, üyələri darbə girişimində-filanda bulunmayıblar, heç təkər-zad da qaraltmayıblar, eləcə oxuyublar və orda-burda işə düzəliblər.

Oxumuş adamlar deyirlər ki, bu cür sinsi (yeni hiylədar) örgüt dünyada olmayıb, buqələmun kimi hansı mühitə düşürlərsə, dərhal ona uyğunlaşırlar - yəni millətçinin yanında millətçi, solçunun böyründə solçu, liberalla danışanda liberal, yaşıllarla söhbətləşəndə ekologiya fanatı, hətta cinsi azlıqlarla bir arada olanda özlərini eşcinsəl kimi təqdim edə, qarşılarındakının rəğbətini qazana bilirmişlər.

Hazırda səslənən bütün iddia və ittihamlara inanmaq kimi bir məcburiyyətimiz yoxdur, amma test imtahanının suallarının oğurlanması məsələsi artıq sübuta yetirilmiş kimi görünür. Bu isə balaca məsələ deyil.

Yeri gəlmişkən, bilmirəm hazırda Türkiyənin tələbə qəbuluna məsul idarəsindən beş-altı yüz adam tutublar, yoxsa yox. Amma hərgah belə bir iş baş veribsə, orda tutqular olmalıdır.

# Nurçularla "gülənçi"lər arasında fərq varmı?

## Müşahidəçilərə görə, yaxşı olar ki, bu haqda nurçuların dini lideri çıxıb özü məlumat versin...

**Ötən gün politoloq Arzu Nağıyev ""Gülənçi"lərin Azərbaycanda çevriliş etmək imkanı varmı" mövzusunda qəzetimizə verdiyi açıqlamada maraqlı bir fikir səsləndirmişdi. Politoloq qeyd etmişdi ki, nurçularla "gülənçi"ləri eyniləşdirmək doğru deyil.**



Səid Nursi

**Sitat:** "Nursinin inancı ilə "gülənçi"lərin inancı çox fərqlidir. "Gülənçi"lər müxtəlif məktəblər açmaqla, bu məktəblərin hesabına, şirkətlərin hesabına gəlir əldə etməklə hakimiyyətə gəlirlər. Lakin Nursinin təbliğatında belə şey yoxdur. Nurçular öz gününü gözləyir ki, nə vaxt onlara ehtiyac olsa, o zaman hakimiyyətə gəlsinlər".

"Yeni Müsavat" olaraq bu məsələyə aydınlıq gətirməyə çalışdıq. Həqiqətənmi nurçular və gülənçilər, yəni Fətullah Gülən tərəfdarları fərqli ideologiyaların nümayəndələridirlər? Axı daha öncə F.Gülən özü nurçu dini ideologiyasının təbliğatçısı kimi gündəmə gəlmişdi. Belə olduğu halda fərq nədədir?

**Politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, ideoloji baxımdan nurçularla gülənçilər arasında fərq var:** "Nurçuların banisi Səid Nursidir və nurçular o xətt üzrə gedirlər. Fətullah Gülən vaxtilə özünü Səid Nursinin tələbəsi hesab etsə də, bir qədər fərqli xətt yürütdü. Hətta "gülənçi"lərin içində də bir neçə qanadın olduğu haqqında xəbərlər var. Hətta 15 iyul tarixində çevrilişə cəhdlə bağlı fərqli faktlar ortaya çıxır və məlum olur ki, orduda nurçular qanadı da olub, "gülənçi"lər o qanadı tədricən sıxışdırıblar və öz adamlarını yerləşdiriblər. Yəni hətta ordunun içində nurçularla "gülənçi"lərin ayrı-ayrı xətləri olub və onlar arasında da mübarizə gedib. Bu iki xətt arasında ideoloji fərqlər olsa da, Gülən tərəfdarları daha təhlükəlidir. Gülənçilər Nur ideologiyasını əsas götürüb, müəyyən korrektələr aparıblar. Aralarında müəyyən fərq ola bilər, lakin hər iki cərəyan həm Türkiyə, həm də Azərbaycan cəmiyyəti üçün təhlükəlidir. Ona görə də hər iki təriqətin nümayəndələrinə qarşı mübarizə aparılır".

**Ekspert onu da vurğuladı ki, son olaylara görə bütün nurçuların cəzalandırılması da doğru deyil, burada**



Fətullah Gülən

**şəxslərin terrora dəstək verib-verməsi də nəzərə alınmalıdır:** "Kimsə özünü nurçu ideologiyasının tərəfdarı saya bilər. O buna görə cəzalandırılmamalıdır. Hansısa dinə sitayiş etdiyinə görə insanı cəzalandırmaq doğru deyil. Hətta Gülən ideologiyasının bəzi fikirlərini də bölüşə bilər. Ancaq əgər ondan sonra həmin şəxs o ideologiyaya qulluq etməyə başlayırsa, sistemin içinə daxil olub maliyyə yardımları edirsə, o artıq terrora dəstəkdir və həmin şəxs cinayət məsuliyyətinə cəlb oluna bilər. Necə ki, artıq proseslər gedir, orduda təmizlənmələr, digər nazirliklərdə təmizlənmə işləri aparılır. Artıq proseslər Azərbaycana da təsir edib, SOCAR-ın Türkiyə rəhbərliyi həbs edilib. Bu, o deməkdir ki, onlar nəinki o ideologiyaya inanır və hətta xidmət edir, maliyyə dəstəyi göstərirsə, deməli, məsuliyyət daşımalıdırlar. Bizim xalqın gəlir mənbəyi neftdir və oraya da bu ideologiya şərik olub, oradan da özü üçün pul götürməyə çalışıb. Ona görə də biz də bu hadisələrdən dərs çıxarmalıyıq. İndiki halda, əgər nurçularla "gülənçi"lər arasında fərq varsa, yaxşı olar ki, nurçuların dini lideri çıxıb bu haqda məlumat versin. Desin ki, biz fərqli ideologiyaya xidmət edirik, dövlətçiliyə sadiqik. Belə bir açıqlama isə yoxdur, o səbəbdən ikisini də bərabər tuturuq".

Nurçularla "gülənçi"lərin ideoloji fərqləri ilə bağlı islam.az saytında da geniş məlumat yer alıb. Məlumatda qeyd edilir ki, nurçuluq XX əsrdə türkiyəli din xadimi Səid Nursinin (1878-1960) yaratdığı ideoloji cərəyandır. Bu cərəyanın ardıcıllarına "nurçular" deyilir. Nurçular öz təbliğat şəbəkələrinin iş prinsipini "hizmət" adlandırırlar. Nurçuluq hər hansı dini özəllikli və ya sırf sufi təmayüllü cərəyan deyil. Bu, daha çox təfsirə dayaqlanan, əxlaqi və ictimai yönümlü bir hərəkatdır. Nurçular fiqhi məsələlərdə hənəfidirlər. Səid Nursi Türkiyədə respublika quruluşu tətbiq edildikdən sonra dünyəvi dövlətə qarşı çıxmış, əsərlərində dini dövlət modelini müdafiə etmiş, buna görə də Türkiyə hökuməti tərəfindən təqiblərə məruz qalmışdı. Bununla belə, Səid Nursi siyasi həyata dərindən qatılmamış, heç bir siyasi partiyanı və qrupu müdafiə etməmiş, dövlət idarəçiliyinə öz ardıcıllarını yeritmək fikrində olmamışdı. Bu, Fətullah Gülənin xətti ilə klassik nurçuluğun arasında olan əsas fərqli cəhətlərdən biridir.

Hazırda böyük qalmaqallara səbəb olan Fətullah Gülən hərəkatı nurçuluğun bir qoludur. Bəziləri bu hərəkatla klassik nurçuluq arasında prinsipial fərqlərin olduğunu iddia edərək, Fətullah Güləni nurçuluq təlimini təhrif etməkdə təqsirləndirirlər. Lakin Fətullah Gülən hərəkatının klassik nurçuluqla bəzi fərqli cəhətləri olsa da, bu fərqləri şişirtmək və iki cərəyanı bir-birindən tamamilə ayırmaq düzgün deyil. Gülənçi hərəkatla klassik nurçuluq arasındakı əsas fərqliliklər siyasi baxış tərzində və təbliğat metodlarındadır. Fətullah Gülən hərəkatı isə siyasi proseslərə daha fəal və çevik reaksiya verməsi ilə seçilir. Türkiyədə və hizmət şəbəkəsinin qurulduğu sair ölkələrdə iş adamlarını öz tərəfinə çəkmək, özəl təhsil şəbəkəsi vasitəsilə kadrlar yetişdirmək, lazım gələrsə, şantaj və sairə üsullardan yararlanmaq, şəbəkənin imkanlı üzvlərindən bəzən qeyri-qanuni və qeyri-əxlaqi yollarla ianələr əldə etmək onları başqa nurçulardan fərqləndirən əsas cəhətlərdir.

Əlavə edək ki, nurçuluq hərəkatı 1965-91-ci illər arasınnda Türkiyədə qadağan edilmişdi. 1991-ci ilndən bəri nurçular ölkə ərazisində yenə sərnbəst fəaliyyət göstərirlər. Lakin Türkiyədə baş verən 15 iyul hadisələri məlum hadisələr nəticəsində nurçuluğa, xüsusən də onun F.Gülənçi qoluna qarşı təzyiqlər başlayıb. Türkiyədən əlavə, Azərbaycan, Rusiya, Orta Asiya dövlətləri, ABŞ, Amerika, Avstraliya kimi ölkələrdə də nurçuluq hərəkatının ardıcılları var.

❑ Nərgiz LİFTİYEVA

**26 sentyabrda keçiriləcək referendumla bağlı təşviqat qruplarının yaradılması üçün Seçki Məcəlləsinin tələbinə uyğun olaraq müəyyən edilən vaxt avqustun 3-də başa çatıb. İki partiya istisna olmaqla, ölkədə qeydiyyatda olan 55 partiyadan heç biri təşviqat qrupu yaratmadı. Hakim Yeni Azərbaycan Partiyası "Yeni Azərbaycan" təşviqat qrupu, Müsavat Partiyası isə "Respublika" təşviqat qrupunu rəsmən yaratdılar. Təşviqat qruplarının qeydə alınması üçün hər təşviqat qrupu üçün ölkə ərazisində 40 min imza toplanmalı və Mərkəzi Seçki Komissiyasına təqdim edilməlidir.**

# Arif Hacılı ilə Əli Kərimli arasında uğursuz referendum görüşü...

## Müxalifəti konstitusiya dəyişikliyinin də birləşdirə bilməməsinin səbəbləri; **Əli Əliyev:** "Müxalifət qüvvələri bu prosesdə də özəl brend maraqlarına oynamaqda israrlı görünürlər"

Əldə etdiyimiz məlumata görə, Müsavat Partiyasının başqanı "Respublika" təşviqat qrupunun yarandığı elan edilməmişdən öncə AXCP sədri Əli Kərimli ilə görüşüb. Arif Hacılı Əli Kərimliyə Müsavatla AXCP-nin birgə təşviqat qrupu yaratmasını təklif edib. Əli Kərimli birgə təşviqat qrupunun yaradılmasına razı olduğunu deyərək bəzi ilkin şərtlər irəli sürüb. Görüşdən iki gün sonra Əli Kərimlinin Arif Hacılı ilə ilkin razılaşmaya əməl etmədiyi məlum olub. Müsavat başqanına birgə təşviqat qrupu yaratmağın mümkün olmadığı ismarışı göndərilib. Deyilənə görə, Əli Kərimli Arif Hacılının təklifini Milli Şura rəhbərliyi ilə müzakirə edib. Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli qəti şəkildə qarşı çıxıb. Bundan sonra məsələyə nöqtə qoyulub.



Arif Hacılı



Əli Kərimli

**Müsavat başqanı Arif Hacılının dünən "Amerikanın Səsi"nə müsahibəsində verdiyi açıqlamadan da bəlli olur ki, o, təşviqat qrupu yaratmaq, birlik istiqamətində partiya sədrləri ilə görüşüb, ancaq müsbət nəticə əldə olunmayıb:** "Mən demək olar ki, bu dəyişiklikləri mürtəce dəyişikliklər hesab edən bütün siyasi təşkilatların rəhbərləri ilə görüşmüşəm. Müəyyən əməkdaşlıq elementləri var. Təəssüf ki, bütün qüvvələrin ümumi bir əməkdaşlıq mərkəzinin yaradılması mümkün olmadı. Ancaq hər halda, bu kontaktlar, hesab edirəm ki, müsbət nəticə verəcək. Biz çalışacağıq ki, birgə fəaliyyət göstərmək mümkün olmasa, ümumi fəaliyyətin koordinasiyasına nail olaq".

Beləliklə, hətta referendum da müxalifət düşərgəsini birləşdirə bilmədi. Bəs bu vəziyyətin kökündə dayanan nədir? Müxalifət liderlərinin arasında barışmağa imkan verməyəcək dərəcədə qırılmış münasibətlər, birliyin, heç bir fəaliyyətin hakimiyyətin planına mane ola bilməməsi düşüncəsinin hakim kəsilməsimi?

**VİP sədri Əli Əliyev hesab edir ki, referendumda da müxalifətin bir araya gələ bilməməsinin bir neçə səbəbi var:** "Hansı səbəbin həlledici olduğunu söyləyə bilmərəm. Lakin acınacaqlı nəticə ortadadır. Bütün hallarda sonuc hakimiyyətin maraqlarına xidmət edir. Səbəblərin sırasında ilk növbədə müxalifət qüvvələri arasında illər uzunu formalaşmış etimadsızlıq mühitidir. Digər səbəb vəziyyətin real durumudur. Düşərgədə vəziyyətin dəyişməyəcəyi ovqatı hökm sürür. Bu baxımdan, lider və təşkilatlar ilk növbədə taktiki problemləri həll edirlər. Hamı "mövsümi" çətinlikləri çözməyə çalışır. Fərqindədirlər ki, vəziyyətin kardinal dəyişməsinin makro səbəbləri mövcuddur. Özümüzü deyilənlərdən kənarda saxlamırıq, bunlar bizə də aiddir.

Əvvəla, referendumda ediləcək dəyişikliklər hakimiyyəti dinc dövrdə komandanın əlində saxlamaq üçün edilir. Burada siyasi həyata transformasiya etdirilən bioloji varislikdən söhbət gedir. Axı kim bilmir ki, iqtidarın bugünkü düşüncəsi ilə Azərbaycanda normal siyasi proses mümkün deyil? Ona görə də biz xalq olaraq siyasi kataklizmlərə hazırlaşmalıyıq. Kataklizmlər isə obyektiv proseslərdən yaranmalıdır. Bu, həm kürəsəl, həm də ölkədaxili dinamikaya bağlıdır. Məsələn, neftin qiyməti, demokratiya hərəkatı, böyük güclərin qarşıdurması, dünyanın yeni siyasi şəkilləndirilmə təşəbbüsləri, ABŞ-da prezident seçkiləri və s. Bu kimi potensiallı dəyişikliklərin Azərbaycana təsirindən ölkə "tərpənə" bilər. Belə dönəmdə referendumda nəzərdə tutulanlar əhəmiyyətli olmayacaq. Təbii ki, ölkədaxili proseslər də vacib olacaq".

**Partiya sədri bildirdi ki, bu gün müxalifətin vəzifəsi cəmiyyətin və dünyanın sussqunluğu şəraitində mümkün mübarizəni ortaya qoymaqdır. Ən mühüm 2 müttəfiqindən məhrum edilmiş müxalifət belə reallıqda çox böyük nəticə göstərə bilməz:** "Cəmiyyət iqtidarın idarəçiliyindən narazı olsa da, hələlik etiraz etməyi düşünmür. Bəlkə də etimad göstərilməli qüvvə tanımır. Bu faktor da olmamış deyil. Beynəlxalq ictimaiyyət şübhəli şəkildə susur. Ona görə də müxalifət qüvvələri bu prosesdə də özəl brend maraqlarına oynamaqda israrlı görünürlər. Hər halda, bu günə olan görüntü belədir.

Amma birlik nümayişi vacibdir. Müxtəlif qəlpələr şəklində prosesə qoşulmaq qərarı çıxsa da, birgə, heç olmasa koordinasiyalı addımlar yerinə düşərdi. Belə acınacaqlı siyasi tablonun həmmüəllifləri bir neçədir. Onlardan ən birincisi əlbəttə ki, iqtidarın özü və yürütdüyü siyasətdir. Belə münasibətlər məhz hakimiyyət tərəfindən formalaşdırılıb. İllər uzunu ölkəni talamaq məqsədilə siyasi seqmentə qarşı formalaşdırılan kampaniya acı nəticələrini indi verir. Türkiyədə baş verən iyul hadisələrindən heç bir dövlət sığortalanmayıb. Ukraynada baş verənlər də nümunə xarakteri daşıya bilər. Elə dövlətçilik imtahanı məqamlarında siyasi institutların gücü zəruri hala gəlir. Dövləti ictimai şəkildə qorumaq zərurəti yarandıqda partiyaların gücsüzlüyü dövləti dağıda bilər. Təəssüf ki, bunu iqtidardakıların çoxu anlamır. Müxalifətin bugünkü durumuna sevinmək deyil, qüssələnmək daha düz olar".

**Siyasi ekspert Natiq Miri isə suallarımıza cavabında dedi ki, birinci səbəb siyasi sistemin bütöv və mahiyyətinə uyğun fəaliyyət göstərə bilməməsidir. Çünki bütöv siyasi sistemlərdə elə bir özünüqoruma instinkti olur ki, hər hansı bir təhlükə, təhdid olan kimi siyasi sistemin bütün parçaları dərhal qeyri-iradi olaraq nüvə ətrafında birləşir:** "Bizdə isə bu işləmədiyi üçün görsənir ki, hələ də Azərbaycanda siyasi partiyalar bir bütöv sistemin parçaları ola bilməyiblər.

Bu, həm də onunla əlaqəlidir ki, siyasi partiyalar öz fəaliyyətlərinə, fəaliyyət hədəflərinə şəxsi maraqlarını da qarışdırır və əsasən fəaliyyəti də öz korporativ maraqları üstündə qururlar. Belə vəziyyətdə də müxalif partiya liderlərinin təbii olaraq maraqları uzlaşmadığından birlik də baş tutmur və beləliklə də dövlət və milli mənafe asanlıqla gözardı edilir".

❑ **Etibar SEYİDAĞA**

# Putin planı bitdi, yoxsa hələ ümid var?



**Hüseynbala SƏLİMOV**

**İki həftədən sonra olsa da Ermənistan prezidenti prosesləri nəzarətə götürə bildi. Polis post-patrul binasını ələ keçirmiş silahlılar təslim oldu, mitinq və etirazların təhlükəli həddə qədər inkişafının qarşısı alındı. Bəli, S.Sərkisyan indi azacıq da olsa, rahat nəfəs ala bilər.**

Hərçənd bütün bu proseslərin onun öz oyunu olduğunu düşünənlər də az deyildilər. Belə fikirlər vardı ki, idarə olunan xaos, qarışıqlıq yaratmaqla Ermənistan prezidenti öz ölkəsi üçün bir o qədər də sərfəli olmayan və çətin həzm olunan indiki Qarabağ danışıqlarının, daha doğrusu, V.Putinin adı ilə hallanan "aralıq planı"nın şərtlərindən canını qurtarmaq istəyir...

Biz də bu ehtimalı istisna etmirdik. Amma onu da qeyd edirdik ki, belə bir oyunun çox təhlükəli sonluğu da ola bilər, çünki böyük iğtişaşlar yaratmaq və onları idarə etmək elmini yalnız DTK məktəbini keçənlərə öyrədirdilər, S.Sərkisyan isə, səhv etmiriksə, bu məktəbi keçməyib...

Qərəz, artıq bitmiş prosesin təfərrüatlarına varmağın indi elə bir mənası yoxdur. Amma bir məsələni mütləq qeyd etmək lazımdır. S.Sərkisyan bu proseslərdən güclənərək çıxa bilmədi. Onun hakimiyyəti nisbi dayanıqlıq halındadır. Hər an böyük etirazlar başlaya bilər və Sarkisyanın hakimiyyəti çox radikal siyasi tələblərin predmetinə çevrilər. Ona görə də bu gün üçün ən aktual sual budur ki, Sərkisyan Qarabağ danışıqlarını davam etdirmək iqtidarında olacaqmı?

Doğrusu, bununla bağlı elə də optimist deyilik. Hakimiyyətinin zəifliyi bir tərəfə, Sərkisyan özü də aprel döyüşlərinin nəticələri ilə barışa bilmir. Bu adam gah Azərbaycanın ələ keçirdiyi əraziləri Ermənistanın nəzarət etdiyi ərazilərlə müqayisə edir, gah Qarabağa səfərlər edir, gah da ki, ölkəsini Azərbaycanla müharibəyə hazır olmağa çağırırdı.

Elə diqqəti cəlb edən də budur ki, polis binasının ələ keçirilməsi kimi yadda qalan hərbi-kriminal olaydan azacıq əvvəl S.Sərkisyan Qarabağ münaqişəsinin paket həllində israr edəcəyini və bu, qəbul olunmazsa, Azərbaycanla müharibə edəcəklərini demişdi...

İndi də güman edirik ki, S.Sərkisyan prezidentlərin görüşünün baş tutacağı təqdirdə maksimum dərəcədə güzəştə getməməyə çalışacaq, çünki yalnız bununla o, hakimiyyətinin qalan hissəsini bir təhər başa vura bilər.

Təbii ki, bu, Qarabağ problemi üçün elə də ürəkaçan perspektiv deyil. Birincisi, ona görə ki, əgər konfliktin həllinə baxışda iki həll variantını - paket həll variantı ilə mərhələli həll variantını birləşdirməyə cəhd edən V.Putinin "aralıq variantı" da qəbul olunmazsa, onda nəyə ümid etmək qalır? Bundan sonra danışıqlar uzun müddətli dalana dirnəməyəcək ki?

Təbii ki, dirənəcək və tərəflər münasibətlərini danışıqlar masası arxasında, diplomatik dəhliz və "kluar"larda deyil, döyüş meydanlarında aydınlaşdırmağa və bəlkə təqvimin daha bir ayını əbədiləşdirməyə cəhd edəcəklər. Burada isə hər iki tərəf üçün müəyyən risklər var...

Üstəlik, Azərbaycan üçün bu, o demək olacaqdır ki, ölkə özünün ilk hərbi uğurunun - aprel döyüşlərinin verdiyi üstünlükdən yararlana və erməniləri daha realist siyasət yürütməyə vadar edə bilmədi. İlk dəfə idi ki, Azərbaycan diplomatları danışıqlara üstün mövqeli tərəf kimi qatılırdılar. Fəqət, bu mövqedən də yararlanmaq mümkün olmayacağı bir halda bircə yol qalır: Ermənistana qarşı təzyiqi artırmaq və hərb səlnaməsinə daha bir ayın adını yazmaq. Təbii ki, asan deyil. Bir az əvvəldə dedim ki, belə perspektiv hər iki tərəf üçün müəyyən risklər vəd edir...

Həm də Rusiyanın da mövqeyindən çox şey asılı olacaq. Rusiya isə burada iki cür davrana bilər. Birincisi, S.Sərkisyana və Azərbaycana öz variantını qəbul etdirmək üçün təzyiqlər edər. Yaxud da ki, azacıq kənara çəkilərək hər iki tərəfə daha bir dəfə güclərini hərb meydanında sınamaq şansı verər.

Bu halda ya bir tərəf, ya da ki, onların hər ikisi zəifləyəcək və Rusiyanın diqtələrinə daha diqqətli olacaqlar.

Qərəz, situasiya növbəti gərginlik vəd edir. İndi yalnız bir şeyi demək mümkündür. O da budur ki, Ermənistandakı son olaylar Rusiyanı da bir az düşünməyə vadar edəcək, təbii ki, əgər bütün bu olaylar onun özünün ssenarisi deyildisə! Məsələ bundadır ki, əvvəldən müşahidəçilər bu ehtimalı əsas variantlardan biri kimi götürürdülər. Düzdür, biz buna bir o qədər inamla yanaşmırdıq. Amma digər tərəfdən, niyə də yox ki?.. Bu günə qədər Ermənistanda hakimiyyətlər də, onlara qarşı müxalifətdə olanlar da, hətta əsas müxalifətə müxalif davranışda bulunanlar da Rusiya ilə bağlı olmayıblarmı? Qərəz, çox qəliz məsələdir. Düyünün necə açılacağını bilmək üçün bir azca gözləmək lazım gələcək...

# Presedent



Zamin HACI
zaminhaci@gmail.com

**İnternetdə problem çıxmışdı, zəhmətkeşlərimizin yadına peykimiz düşmüşdü. Həmişə belə olur axı, dara düşəndə Simurq quşunun lələyini yandırırsan, hər bir yaraq-əsləhə, yardım peyda olur. Ancaq bizim "quşumuz" doğuşdan yoluq çıxıb, heç bir işə yaramır. Onu uçurdanda hökumət demişdi, vəssalam, telekommunikasiya sahəsində bütün problemlərimiz həll olunacaq, internet elə bol olacaq ki, kompüteri açanda süd axacaq, telefonla internetə girəndə bal töküləcək və sairə.**

Hərdən mən fikirləşirəm bəlkə o peyk də qaçın düşübdür, respublikamızı təmsil etmək istəməyibdir. Hansısa başqa orbitdən sığınacaq alıbdır. Ya da müxalif fikirli verilişləri çanaq antenlərinə yaymaq fikrinə düşdüyündən hökumət onu Azərbaycan Respublikasının peyk-vətəndaşlığından məhrum edibdir.

Sabunçuda bir ana 9 aylıq oğlunu qonşuya verib qaçıbdır - bu haqda dünən xəbər lentində oxudum. O yazıq uşaq necə də bizim ümumiləşdirilmiş simvolumuza bənzəyirdi... Axı biz də vətənimizi beləcə atıb gedirik, qonşuların ümidinə buraxırıq. Qonşu da barı yaxşı qonşu ola... Biri "uşağı" parçalayır, o birilər də didməyə, yoluşdurmağa fürsət gəzir. Hələ ən yaxşı qonşumuz guya Gürcüstandır, ancaq Qamsaxurdiya vaxtının Gürcüstanını unutmamışıq.

Sözgəlişi, mən o xəbərdə bir detala da diqqət elədim: qonşular deyir ki, ana qayıtmayıb, əlaqədar orqanlar isə tədbir görmür. Doğrudan yiyəsizlikdir. Bəs dövlət hara baxır? Belə hallarda dövlətin borcudur uşağa atalıq, analıq eləsin, himayəsinə götürsün. Cəngəllikdə yaşamırıq səhv eləmirəmsə. Ancaq əlaqədar orqanlar deyilən o şeylər nədənsə iş-işdən keçəndə yada düşür. Uşaqlar yiyəsiz qalıb öldürüləndə, oğurlananda, itkin düşəndə...

Qanınızı qaraltmaq istəməzdim, əlbəttə. Bilirəm hamı dilxordur onsuz. Bahalaşma, ümidsizlik, işğal, min cür problemlər... Hər kəs başqasına torba tikməyə çalışır. Bunun ən orijinalı keçən ayın son günlərində Lənkəran şəhərində yaşanıb.

Orda falçılar *(millət bu adın mənfi yükünü bildiyindən təzə bir milli termin uydurubdur, belə fırıldaqçılar özlərini "baxıcı" adlandırırlar)* polisə şikayət ediblər. Deyiblər 3-4 nəfər dələduz gəldi, bizi hədələdi, şantaj elədi, pulumuzu, qızıllarımızı alıb getdilər. Polis ərinmədən əməliyyat keçirib - ana və uşaqların problemindən nə qazanmaq olar ki, maraqlı şikayətlər pullu adamlardan gəlir - dələduzları isti izlərlə, maşınla Bakıya gedərkən yolda tutublar. Yaxın oturun, ən maraqlı hissə gəlir: məlum olub bu adamlar "qaçaq jurnalistikasının" *(mən Mətbuat Şurasından fərqli olaraq bunları reket adlandırmıram, bunlar elə köhnə qaçaqların yeni formada təzahürüdür, obyektləri gəzib varlıları soyurlar)* nümayəndələridir, təmsil elədiklər "media orqanları" isə "Presedent" qəzeti və "Xəbərfakt" informasiya agentliyi adlanırmış!

Fikir verin, burda indi qurban və ya cinayətkar kimdir? Baxıcı-falçılar milləti aldadıb cibinə girir, bunlar falçıların cibinə giriblər, polus da bunları yolub buraxacaqdır.

Qayırdıqları KİV-lərin adından çıxış eləsək, burda xəbər və faktın presedentindən danışmaq lazımdır. Axı presedent sözü latın köklüdür, "praecedens" sözündən yaranıb, anlamı isə "öncəki", "qabaqlar olmuş" deməkdir. Deməli, bu baxıcı-falçı-polis dairəvi hərəkətinə bundan qabaqlar da respublikamızın ərazisində rast gəlinmişdir.

Hüquqda presedent anlayışı var, hansısa prosesdə çıxarılan qərar, nəticə özündən sonrakı proseslər üçün əsas olaraq, bir növ, qanun kimi götürülür. Loru dildə desək, hakim Əhmədə cəza kəsəndə eyni maddə ilə qabaqlar cəzalanan Məmmədin prosesinə əsaslanır.

İndi bizim yaşadıqlarımız da qabaqkı həyatlarımızın cəzasıdır.

# Türkiyə MİT-in rəhbəri "sudan quru" çıxa biləcəkmi?

## **Politoloq:** "Yüzlərlə hərbçi aylardır çevriliş planlaşdırır, gizli evlərdə, hotellərdə görüşüb fikir mübadiləsi aparır, MİT və Hakan Fidanın bundan xəbəri yoxdur?.."

**Milli İstihbarat Təşkilatının (MİT) rəhbəri Hakan Fidan ətrafında müzakirələr kəsilmək bilmir. Vaxtilə postundan istefa verərək parlament seçkilərinə qatılmağa qərar versə də, istəyi baş tutmayan MİT rəhbərinin barəsində ağlasığmaz iddialar səslənir. Xüsusilə də H.Fidanın rəhbərlik etdiyi qurumun 15 iyul çevriliş cəhdindən xəbərsiz qaldığı inandırıcı hesab olunmur.**

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və baş nazir Binəli Yıldırımın da açıqlamalarından belə bəlli olur ki, MİT rəhbərliyi Türkiyənin fəlakətlə üz-üzə qaldığı zamanda üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyib.

On minlərlə məmur postundan uzaqlaşdırıldığı, yaxud bir çoxları həbs olunduğu halda, MİT rəhbərliyinin hələ də öz postunda saxlanmasının səbəbləri barədə fərqli fikirlər var. Məsələyə Türkiyə rəhbərliyi də reaksiya verib. "MİT rəhbəri Hakan Fidan və Baş Qərargah rəisi Hulusi Akar istefa ərizəsi yazsalar da onların istefasını qəbul etmədim".



Hakan Fidan

Bunu Fransa telekanalı «France-24» telekanalına müsahibəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan demişdi. Onun sözlərinə görə, xüsusi xidmət orqanlarında əskikliklər olsa da, onlar iş başındadırlar. "Bizdə bir misal var, "Dərəni keçərkən at dəyişdirilməz". İndiki halda vəzifələrinə davam edəcəklər. İstefa qərarının mənə aid olduqlarını bildiriblər, ancaq biz də hər hansı müdaxilə etmədiyimizdən vəzifələrini davam etdirəcəklər",- deyə, prezident vurğulamışdı.

Ancaq H.Fidanın hətta Türkiyə prezidentini ölümdən xilas etdiyi də deyilir. "Fətullahçı Terror Təşkilatı/Paralel Dövlət Quruluşu (FETÖ/PDY) üzvlərinin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Muğla vilayətinin Marmaris mahalında qaldığı hotelə etdiyi hücumun detalları ortaya çıxıb". Publika.az "Star" nəşrinə istinadən xəbər verib ki, hücumdan bir müddət əvvəl qiyamçıların öz aralarında etdiyi telsiz danışıqlar Milli İstihbarat Təşkilatı (MİT) tərəfindən dinlənilib. Dərhal hərəkətə keçən MİT rəhbəri Hakan Fidan Ərdoğanı xəbərdar edib. Ərdoğan bu xəbərdarlıqdan sonra Marmarisdə qaldığı hoteldən ayrılıb. Ona görə də istisna edilmir ki, H.Fidan həm də bu xidmətinə görə postunda davam edir. Lakin onun ictimaiyyət qarşısına çıxmaması da suallar doğurur. İstənilən halda Hakan Fidanın araşdırmalar nəticəsində "sudan quru" çıxıb-çıxmayacağı çox maraqla gözlənilir.

**"Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidan Türkiyədə hərbi çevriliş cəhdinin qarşısının alınmasında ən böyük günahı olan rəsmi şəxslərdəndir. Deməli, Gülən şəbəkəsinə bağlı yüzlərlə hərbçi aylardır çevriliş planlaşdırır, gizli evlərdə, hotellərdə görüşüb fikir mübadiləsi aparır, MİT və Hakan Fidanın bundan xəbəri yoxdur. Ona görə də Ərdoğan və baş nazir Yıldırım Hakan Fidandan narazıdırlar".**

**Politoloq Elxan Şahinoğlu bu fikirləri "Yeni Müsavat"a açıqlama zamanı söylədi. Ekspert xatırlatdı ki, ölkənin prezidenti və baş naziri terrorçu-hərbçilərin qiyamını Hakan Fidandan yox, qohumlarından (?!) öyrəniblər:** "Hətta MİT başqanına telefon zəngi çatmırmış. Türkiyə kimi dövlət üçün bu, utancverici hadisədir. Belə çıxır ki, sabah başqa xarici qüvvələr də Türkiyə əleyhinə nəsə planlaşdırsalar, bundan MİT-in xəbəri olmayacaq. Buna baxmayaraq, Türkiyə prezidenti və baş naziri Hakan Fidanı hələ ki istefaya göndərmirlər. Çünki Türkiyə hakimiyyəti indiki mərhələdə hələ çevrilişin nəticələrini ortadan qaldırmağı, yeni çevriliş imkanlarının qarşısını almağı düşünür. Ancaq mən şübhə etmirəm ki, Hakan Fidan istefaya göndəriləcək".

**E.Şahinoğlu qeyd etdi ki, Türkiyənin Baş Qərargah rəisi Hulusi Akarın da istefaya göndəriləcəyi istisna deyil:** "O da qərargahındakı bu qədər «gülənçi»ni vaxtında müəyyənləşdirə bilməyib. Məsələn, adi bir fakt: Türkiyədə hərbi məktəblərdə riyaziyyat imtahanından adətən 3-4 nəfər tam yüksək bal toplayır. Ancaq bir ildə 1200 (?!) nəfər riyaziyyat fənnindən yüksək bal toplayıb. Necə olub ki, bu fakt MİT-in və baş qərargah rəisinin diqqətini çəkməyib? İndi bəlli olur ki, «gülənçi»lər test suallarını bir neçə gün əvvəl ələ keçirərək öz tərəfdarlarına paylayıblar ki, onlar yüksək balla hərbi məktəblərə qəbul olunsunlar".

**Politoloq Türkiyə prezidentinin MİT rəhbərinə etimadından da bəhs etdi:** "Rəcəb Tayyib Ərdoğan Hakan Fidana çox inanırdı, onu hər təhlükədən qoruyurdu. Hətta Gülənə bağlı prokurorlar Hakan Fidanı sorğu-suala çağırdıqda Ərdoğan bunun qarşısını aldı. Çünki Hakan Fidan həmin sorğu-sualdan sonra həbs oluna bilərdi. Ərdoğan eyni vəziyyətdə keçmiş qərargah rəisi İlkər Başbuğu qorumadı. «Gülənçi» prokurorlar onu saxta ittihamlarla həbs etdikdə Ərdoğan buna müdaxilə etmədi, imkan verdi ki, «gülənçi» prokurorlar ölkənin əsas hərbçisini şərləsinlər. Halbuki Başbuğ ölkə konstitusuyasına daha sadiq çıxdı".

**Politoloq bir məqama da diqqət çəkdi:** "Keçmiş baş nazir Əhməd Davudoğlu Hakan Fidanı hakim AKP-dən millət vəkili seçdirmək istəyəndə də Ərdoğan buna mane oldu. Ərdoğanın əsas arqumenti o oldu ki, Hakan Fidan peşəkardır və o, MİT başqanı olaraq Türkiyəyə daha çox xidmət edə bilər. Ərdoğan yanıldı. Hakan Fidanın çevriliş günü susqun mövqeyini başqa amillə də izah etmək olar. Bəlkə elə gülənçi hərbçilər çevrilişdən sonra Hakan Fidanın da onların tərəfinə keçəcəklərindən ümidli idilər. Məsələn, ordu içində çox az general çevrilişçilərə müqavimət göstərdi, digərləri Gülən şəbəkəsinə bağlı olmasalar da, gözləmə mövqeyinə keçdilər. Onlar Gülən-Ərdoğan mübarizəsində kimin qalib çıxacağını gözləyirdilər. Eləcə də Hakan Fidanın qalibi gözlədiyi istisna deyil. Əgər bu versiya təsdiq olunarsa, Hakan Fidanın gələcəkdə prokurorluğa çağırılacağı şübhə doğurmur. Bu dəfə isə onu «gülənçi» prokurorlar deyil, konstitusiyanı əsas tutan prokurorlar sorğu-suala çağıracaqlar".

**Yeri gəlmişkən, E.Şahinoğlu sosial şəbəkədəki şəxsi səhifəsində də diqqətçəkən fikirlər yazıb. O qeyd edib ki, Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqunun jurnalistlərlə görüşündə Fətullah Gülən şəbəkəsini nəzərdə tutaraq belə bir cümləsi diqqətimi çəkdi:** "30 il Türkiyə bayrağı altında xidmət edən adamlar o gecə "mənəvi lider"lərinin təlimatı ilə türk xalqına silah çəkdilər". Mənə bu cümlənin birinci hissəsi maraqlı gəldi. Həqiqətən "Türkiyə bayrağı altında xidmət edən həmin adamlar" Türkiyənin keçmiş prezidenti Turqut Özaldan tutmuş keçmiş baş nazir Bülənt Ecevitə qədər dostluq etmədikləri siyasətçi qalmamışdı, hamısının xeyir-dualarını almışdılar, hətta indiki cümhurbaşqanı Rəcəb Təyyub Ərdoğan hakimiyyətinin ən azı 9 ilini onlarla dostluq və müttəfiqlik şəraitində keçirdi, qardaş ölkənin səfirləri belə indiki terrorçuların nümayəndələrinin məktəblərinə, universitetlərinə ziyarətləri özlərinə şərəf saydılar, birgə şəkil çəkdirdilər. Başqa cür olması da çətindir". E.Şahinoğlu sual edib: "Səfirlərin başlarının üstlərindəki liderlər Fətullah Gülənin və onun şəbəkəsinin illərlə nəvazişini çəkdilərsə, onlar nə etməli idilər? Ancaq elə siyasətçilər və səfirlər də tapıldı ki, Ərdoğan Güləni terrorçu elan edib onunla mübarizəyə başladıqda da Gülən şəbəkəsi ilə əlaqələrini kəsmədilər. Təsadüfi deyil ki, Türkiyənin keçmiş Baş Qərargah rəisi İlkər Başbuğ da müsahibəsində dedi ki, Ərdoğan çevrilişə qədər Gülən və onun şəbəkəsinə qarşı 4 il ərzində tək mübarizə aparıb, hakimiyyətdəki digər fiqurlar seyrçi qalıblar. Elə mənim özüm Bakıda türk diplomat və jurnalistlərlə görüşlərimdə Gülən şəbəkəsinin təhlükəsindən söz açarkən, həmsöhbətlərimin başqa mövzuya keçmələrinin şahidi olmuşam".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016

**Başlıqdakı bu sualı daha çox bizi sevənlər verir. Onlar hacılı kimilərin bizim barədə arxadan xəncər xarakterli iddialarına inanmırlar, "Rauf Arifoglu satılmaz" deyə, bizə hər şərt altında dəstək verirlər... Amma sonunda yenə də qeyd edirlər ki, axı qəzet daha əvvəlki qəzet deyil... Onlar haqlıdırlar. Bizim kitabımızda satmaq və satqınçılıq yoxdu. Həm də əslində maraq və mənafelərini satacaq çevrəmiz, qrup və təşkilatımız da mövcud deyil. Biz "Yeni Müsavat" Media Qrupundan və buranın işçilərindən, əməkçilərindən başqa kimsəni sata, aldada bilmərik. Allaha şükür ki, kollektivdə də şikayət edən, ittiham irəli sürən yoxdur.**

**Rauf ARİFOĞLU**



# "Yeni Müsavat" niyə əvvəlki kimi deyil? - oxucunun sualına cavab

Ölkədə, kainatda mürəkkəb proseslər gedir, dünya yenidən dizayn olunur, hər yerdə, hətta demokratiyanın beşiyi sayılan Avropada da, demokratiyanın paytaxtı sayılan Vaşinqtonda da iqtidarlar, onların daxili və xarici siyasət konsepsiyaları aqressivləşir, ictimai əsaslar dəyişir, sosial tələblər fərqlilik göstərir. Dünyanın və demokratiyanın standartları dəyişir. ABŞ-da "dəli Tramp" kimi birisi prezident olmaq ərəfəsindədir... Hər bir dövlətdə özünüqoruma instinkti işə düşüb. Çevrilişlər olur, insanlar ölür, güllələnir, təyyarələr öz parlamentinin binasını bombalayır, terrorlar dünyanı başına götürüb. İqtidarlar özünü, içini təmizləyir, müttəfiqlər düşmən, düşmənlər dost olur...

Belə bir halda üzgün, yorulmuş və bütün ümidləri tükənmiş Azərbaycan müxalifətinin bəzi para təmsilçiləri siyasi səhnəyə göz gəzdirir və milli azadlıq hərəkatının, demokratik düşərgənin ayaqda, yıxılmadan qalan tək nümunəsini - "Yeni Müsavat"ı, ona ələvətən qurduğumuz böyük saytları görür və yalnız ona yüklənir. Anlayırıq ki, biz də bütün düşərgə kimi yıxılsaydıq, inləsəydik, yaşam düsturu tapıb, zərbələrdən yayınıb, ayaqda qala bilməsəydik, təbii ki, kimin nə işinə vardı ki...

Hərə öz mədəni səviyyəsinə və içindəki münasibətə uyğun reaksiya verir. Biriləri, sadəcə, ayaqda olduğumuza, bunca zərbələrə tab gətirib, çökmədiyimizə görə bizi hədəfə alır. İstəmir, bizi ayaqda görməyə dözəmmir və bağırır, "satqın" deyir, təhqir yağdırır. Böyük bir qəzeti, 3 saytı, 60 iş yerini, yazar və müxbirləri qoruyub saxlamağın, inkişaf etdirməyin xəyanət və satqınçılıq kimi qiymətləndirildiyi bir düşərgə ilə təmasda olmaq nə demək, anlamanı zı istərdim...

Lakin bir çoxları elə deyil. Onlar xəyallarından yıxılıblar. Onlar iqtidar olmaq, özlərinin həyatlarını və Azərbaycanı dəyişmək uğrunda siyasi partiyalara üzv olub, illərini xərcləyənlərdir. Ya da onların övladları, yaxınları - qismən, yaxud tam gənclərdir.

Onlar, sadəcə, gileylənirlər. Ətraflarındakı siyasi uçquna baxıb, qarşılarında ayaqda duran və yaxşı tanıdıqları tək quruluşa - "Yeni Müsavat" Media Qrupuna baxıb, hövüllənir və deyirlər: **"...Qəzet əvvəlki kimi yazmır".** Biriləri əski dövrlərdəki yazılarımızı paylaşır. Biriləri video-çıxışlarımızı yayır - lakin demokratik düşərgədə hamı nəsə edir, bizə münasibətdə. Biriləri xeyirxahlıqla, biriləri bədxahlıqla. Sanki hamı and içib ki, qapısını aça biləcəkləri, hərəkata aid salamat qalan tək media quruluşunu da sallaşıb yıxsınlar, uçquna qatsınlar, sonra da rahatca varıb getsinlər kədərlənmələrinin dalınca...

**Facebokda xətrini çox istədiyim müsavatçılar status yazmışdılar. Ənənəvi: "Yeni Müsavat" əvvəlki deyil, mən bu qəzetlə nəfəs alırdım, indi almıram və sair...**

**Onların hamısı zamanında konkret siyasi liderlərə tapınanlardı. Əslində öz liderlərini ittiham etməlidirlər - lakin onun yükünü də bizə yükləməyə üstünlük verirlər... Mən belələri üçün, düz onların statuslarının altından bir yazı yazdım. Sonra onu böyütdüm, bu hala gətirdim. İstərdim, bu qeydlər daha geniş oxucu kütləsinə çatsın.**

***

Əvvəlki "Yeni Müsavat"ın xiffətini çəkən dostlar! Əslində biz o zaman - 1999-2003-cü illərdə qəzet buraxmırdıq - "döyüş vərəqəsi" kimi bir şeydi... Çünki düşərgələr arasında gerçək bir mübarizə, savaş gedirdi. Digər tərəfdən, axı dəyişən heç də yalnız qəzetlər deyil, qardaş və bacılarım. Dəyişən əsasən Müsavatdı, müxalifətdi, sizin tapındığınız liderlərin hədəfsizliyidi, qəzetin bir zamanlar sizinlə bərabər dəstək verdiyi, iqtidara daşımaq istədiyi qüvvələrin, siyasətçilərin sıradan çıxmasıdı, yolun yarısında nəfəs təngliyinə düçar olması, dayanmasıdı, siz özünüzsünüz, ölkəmizdi, dünyadı... Biz indi 2002-2003 -cü ildəki hədəfi, böyük mitinqləri, siyasi birlikləri, ab-havanı, böyük coşqunu haradan tapaq? Qəzet, saytlar günə və sizlərə, siyasətə Ayna tutur. İndi bizdə gördüyünüz mənzərə özünüzsünüz, özünüzə baxıb məyus olursunuz. Liderləriniz, təşkilatlarınız, gerçək durumunuzdu sizi məyus edən. Məgər dəyişən yalnız qəzetdi, oradakı yazılardı? Guya hər şey yerindədi, yalnız "Yeni Musavat" dəyişib? Yox, özünüzü aldatmayın. Müxalifət deyilən "sıfır güc" hazırda nə edir ki, biz də yazmırıq, fotosunu çəkmirik, canlı yayım etmirik? Sizin dəyişmək istədiyiniz bu hakimiyyətə qarşı kim hansı fəaliyyəti göstərdi ki, biz onu işıqlandırmadıq? Gileyləndiyiniz devalvasiya, bahalıq əleyhinə kim mitinq, toplantı, flaşmob keçirdi, biz onu gözdən qaçırdıq?

**İllər boyu dəstəklədiyimiz liderlər həyatımızı sərf etdiyimiz təşkilatı, təmsil etdikləri hədəfləri, özlərini kiçiltdilər. Ölkənin əsas müxalif partiyaları darmadağındı, siyasi vitrin küsüb gedib, Simvol Lider kənara çəkilib, nevroz birisi iş başına keçib, başına da özü kimi balacaları yığıb, nə etdiyini bilmir... O biri tərəfdə bir ruh xəstəsi, "zombilərin" lideri ölkə siyasətini çirkləndirməkdədir...**

Bunlarımı yazaq? Bu adamlar bir dəfə - 1993-də milli iqtidarımızı, indi də Müsavatımızı məhv etdilər. Yolun yarısında hər şeyi buraxıb gedən bir fəlakət kadrosu ilə üz-üzəyik. İndi biz bunlardan nə düzəldək? Sizi necə və kiminlə ruhlandıraq? Bir qabağa çıxan alternativ ola biləcək qəhrəman göstərin, lütfən, adını söyləyin; heç olmasa toparlayıcı olan normal bir siyasətçi adı deyin, bir hədəf bəlirtisi verin, Azərbaycanın məsuliyyətini üzərinə götürə biləcək normal durumda olan bir müxalif təşkilat, blok, birlik ortaya qoyun. Biz də biləк, ona dəstək verək, gücləndirək, yenidən düzlənək. Ortada bunlar yox ikən, miskin bir mənzərə Aynada əks olunarkən biz sizi necə əvvəlki kimi cəlb edək, "oksigen" olaq? Siz özünüz nə haldasız, əvvəlkisinizmi?

Biz bu səhnəni necə tərənnüm edək ki? Və mövcud iqtidarı bunca miskin bir alternativə niyə və necə dəyişməyə çalışaq ki? Azərbaycanı Ərəbistan xaosunamı çevirək? Heç olmasa, onlar ölkədə sabitliyi idarə edirlər, xaosa gedən dünyada bizim Azərbaycanımızı qoruyurlar! Türkiyəmizdəki son olaylar göstərdi ki, bu faktın özü çox önəmlidir... İndi biz qəzet olaraq kimin üçün, hansı hədəf naminə, hansı alternativi nəzərdə tutaraq, bu hakimiyyətlə savaşaq? Və ən əsası, iqtidarla savaşmaq qəzet işimi? Bunu sizlər - müxalif siyasətçilər və liderlər etməlidirlər axı.

**Başqa bir tərəfdən, 25 illik mücadilə dostlarına, türmə və təşkilat yoldaşlarına, tonlarla çörək kəsdikləri arxadaşlarına arxadan bıçaq kimi siyasi zərbələr endirən kinli, qərəzli, nifrin dolu müxalif siyasətçilərin iqtidara yolunu nə deyərək, açaq? Onlardan iqtidar olmaz axı. Görmürsünüzmü, onlar heç müxalifət də deyillər, olammırlar, bitiblər...**

Bax, durum budur. İndi bizim ən böyük yaxşılığımız bu ki, bu miskin mənzərəni yaradan siyasiləri hər gün topa tutmuruq, onların tənə və nifrinlərinə, feysdən yağdırdıqları tüpürcəklərinə dözürük; dönüb "xain, bivec, avara", - deyə, hədəf göstərmirik, ifşa etmirik. Bunların elə əməlləri var ki, elə faktlar əlimizdədi ki... İnsanların həyatları ilə oynadılar, yalan danışdılar, yanlış hədəf göstərdilər, indi də belə edirlər, deyə sizi qızışdırıb, liderlərin üstünə salmırıq...

Sizlərə, özümüzə və onlara acıyırıq. Ona görə də heç olmasa ermənilərdən, düşməndən yazalım, daha çox onlara "diqqət" ayıralım, deyirik. İndi siz deyirsiz ki, hamı çəkilsin kənara, müxalif düşərgədə qalan bütün insani resurslar feysbuka transfer olunsun, oradan ayaqda qalan tək qurumu - "Yeni Müsavat"ı və onu hər şeyin bahasına qoruyan Rauf Arifoğlunu söysünlər; liderlər varsınlar, kiçilsinlər, prezident olmaq belə istəməsinlər, iddia göstərməsinlər ... amma "Yeni Müsavat" əvvəlki kimi olsun, sizə ruh versin...

**Sizcə, bu, ağıllı, savadlı, insaflı və düzgün yanaşmamı?**

**Sizcə, biz nə baş verdiyini və nə etmək lazım olduğunu, öz xeyir və şərimizi, ən azı, sizlər qədər anlaya bilmirik?**

**Biz əslində əvvəlkiyik - yenə öndə, yenə ayaqda, yenə liderik, siyasətin mərkəzindəyik! Bizə Allahdan verilən missiyanı, insanlarımızı, özümüzü və sahəmizi qoruduq, gücləndirdik, böyütdük.**

**Sizlər üçün, gələcəyimiz, demokratiyamız, ölkəmiz və həm də özümüz üçün.**

**Biz də adam cinsindənik. Bizi də bir Ana doğub. Eyni ilə sizlər kimi...**

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016



# İsrailin qondarma "erməni soyqırımı" haqqında mövqeyinə qarşı erməni hikkəsi

## Erməni yazar yəhudiləri başqalarının qanından pul qazanan vicdansız xalq adlandırdı

**İsrail parlamenti Knessetin Təhsil, mədəniyyət və idman üzrə komitəsi qondarma erməni soyqırımı haqqında qərar qəbul edib.**

Bu barədə komitənin sədri Yakov Margi komitənin iclasında çıxış edərkən məlumat verib. "Erməni genosidini (qondarma -red.) tanımaq bizim mənəvi borcumuzdu" deyə o mətbuata bildirib...

Komitə sədri İsrailin bu vaxta qədər Osmanlı imperiyası tərəfindən erməniləri kütləvi şəkildə qırdığı iddia edilən hadisəni *(erməni tarixçiləri tərəfindən uydurulan və təhrif edilən - red.)* tanımamasına görə təəssüf hissi keçirdiyini bildirib.

Bundan başqa, Yakov Margi Knessetin sədri Yuliy Edelşteyni də bu "səhvi" düzəltməyə çağırıb.

İsrail parlamentində qondarma soyqırımı tanımağa çağıranlar arasında komitənin digər üzvləri Zahava Qalyon (Merets partiyası), Dov Hanin (Vahid ərəb siyahısı), Züheyr Baalül və Nahman Şay (hər ikisi "Sionist düşərgə" fraksiyasındandır) olublar.

İsrail parlamentində qatı ermənipərəst deputat kimi tanınan Zahava Galyon İsrail parlamentinin qondarma erməni soyqırımını tanımamasını İsrail dövləti üçün böyük rüsvayçılıq adlandırıb.

Şübhəsiz ki, komitənin bu qərarı Ermənistanda böyük sevinclə qarşılanıb.

Lakin erməni ictimaiyyətinin heç də hamısı hər kəs kimi qərara coşğu ilə yanaşmır.

Erməni mətbuatının bir hissəsi də Zahava Galyon kimi İsrailin qondrama soyqırımı tanıyacaq dərəcədə irəli getməyəcəyini düşünür.

Məsələn, "armenianreport" saytının şərhçisi Tevos Arşakyan da məsələ ilə bağlı ermənilər üçün bədbin proqnoz verənlər arasındadır.

"Biz əlbəttə ki, erməni xalqının böyük dostu Zahava Qalyonun əməklərini inkar etmirik və buna görə minnətdarlığımızı bildiririk. Hər halda, hər kəsə elə gəldi ki, 1 avqustda İsrail parlamenti, nəhayət, erməni soyqırımını (qondarma-red.) rəsmi olaraq tanıyacaq.... Lakin ayıq təhlil də onu göstərir ki, yəhudi dövləti bu hadisəni soyqırım kimi tanıyan 30 dövlətə qoşulmayacaq", deyə Tevos Arşakyan yazır.

Aydın məsələdir ki, İsrail parlamentinin qalan üzvləri Mədəniyyət, təhsil və idman komitəsinin bu səylərini dəstəkləməyəcək".

**"Bunun bir neçə səbəbi var", - deyə erməni yazar davam edir:**

"Birinci elə ondan başlayaq ki, elə əvvəllər də Knessetdə erməni soyqırımının (qondarma - red.) tanınması ilə bağlı məsələ qaldırılıb. Lakin İsrailin bir çox ictimai və siyasi xadiminin səylərinə rəğmən bu, müvəffəqiyyətsizliyə uğrayıb.

Xatırladıram ki, İsrailin indiki prezidenti Reuven Rivlin də erməni genosidinin (qondarma - red.) tanınması üçün aktiv lobbiçilik edirdi. Lakin o da prezident olduqdan sonra erməni xalqına münasibətini dəyişdi.

İsrail hökumətinin hamısı, ilk növbədə isə Xarici İşlər Nazirliyi bu qərarın qəbul edilməsinə qarşı çıxaraq öz iradələrini Knessetə yeridə biliblər. Deyəsən indi də belə olacaq. Çünki İsrail Xarici İşlər Nazirliyinin mətbuat katibi Emmanuel Naxşon da komitə qərarının İsrail dövlətinin rəsmi mövqeyi olmadığını artıq bəyan edib.

Yəni həm Xarici İşlər Nazirliyi, həm də İsrailin hakim koalisiyasının hamısı erməni genosidi (qondarma-red.) məsələsinin qarşısını bu dəfə də alacaq. Unutmaq lazım deyil ki, Təl-Əviv Ankara ilə münasibətləri düzəltmək üzrədir. Bundan ötrü isə İsrail erməni soyqırımını (qondarma-red.) tanımaq barədə addım atmaz.

Genosid qərarının tanınmamasında Azərbaycanın da rolu böyükdür. Azərbaycan Türkiyənin kiçik qardaşı rolunda çıxış edərək özünü türklərdən daha artıq türk kimi hiss edir. Bu səbəbdən orada İsrail parlament komitəsinin qərarına sərt reaksiyalar gəlib.

İsrail və Azərbaycan arasında hərbi-texniki sahədə imzalanan çoxmilyardlı müqavilələri də nəzərə alsaq, İsrailin Ermənistandan ötrü Bakı ilə də münasibətləri pozmayacağını bilirik.

Nəhayət, ən sonuncusu. Yəhudilərin tarixi eqoizmi onlara erməni soyqırımı (qondarma-red.) haqqında qərar qəbul etməyə imkan vermir. Çünki bir çox israillinin fikrincə, insanlıq tarixində tək genosid hadisəsi yəhudi xalqına qarşı törədilib. İsraillilər erməni genosidi (qondarma-red.) haqqında qərarın genosid məsələsində yəhudilərin monopoliyasını pozacağını düşünür".

**Sonda erməni yazar sual da ünvanlayır:** "Ümumiyyətlə, Azərbaycanı təpədən-dırnağa qədər silahlandıran, onun başkəsənlərinə (məqalədə belə yazılıb - red.) təlim keçən dövlətin genosidi tanıyıb-tanımamasının nə önəmi var?"

"Qoy erməni oxucuları yəhudilərdə vicdan səsinin oyanaraq erməni soyqırımının (qondarma-red.) tanınması barədə illüziyalara qapılmasınlar. Genosid hüququnu inhisar altına alan və başqalarının qanından pul qazanan bir xalqda çətin ki, vicdan və ədalət kimi duyğular olsun" deyə erməni yazar yazısını sonlandırıb.

❑ **VAQİF**

# Təl-Əvivlə Türkiyəni yenidən düşmən etmək istəyənlər hərəkətə keçib

## Qabil Hüseynli: "Belə dinçi qruplaşmaların baş verən proseslərə təsir edə biləcək gücdə olduğunu söyləmək mümkün deyil"

**İsrailin Azərbaycandakı səfirliyi İsrail Knessetində Təhsil, mədəniyyət və idman komitəsinin qondarma "erməni soyqırımı"nı tanıması barədə qərarına, bu barədə yayılmış məlumata münasibət bildirib. Səfirlikdən "Report"a bildirilib ki, İsrail Knessetinin Təhsil, mədəniyyət və idman komitəsinin qərarına baxmayaraq, İsrail hökumətinin qondarma "erməni soyqırımı" ilə bağlı mövqeyi dəyişməz olaraq qalır. Səfirlik bu məsələnin tarixçilərə aid olduğunu və siyasi müzakirə mövzusu olmasına ehtiyac duyulmadığını vurğulayıb.**

**Politoloq Qabil Hüseynli** isə hadisənin arxasında dayanan məqamları "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, İsrail parlamentinin Təhsil, mədəniyyət və idman komitəsi tərəfindən qondarma erməni soyqırımı məsələsi bundan əvvəl bir dəfə qaldırılmışdı. O zaman daha populyar bir şəkildə öz fikirlərini yaya bilmişdilər və ətraflarına da xeyli digər fraksiyalardan deputatlar cəlb edə bilmişdilər. İsrail-Türkiyə münasibətlərinin gərgin olduğu bir dövrdə hətta belə fikirlər söylənirdi ki, bu qondarma qanun layihəsi qəbul edilə bilər. Amma həmin komitənin irəli sürdüyü "erməni soyqırımı" məsələsi İsrail Knessetinin plenar iclasından keçmədi: "Deputatlar onu heç gündəliyə salmağa imkan vermədilər, nəinki səsverməyə çıxarılmasına. Beləliklə də bu komitənin təşəbbüsü elə beşikdəcə boğuldu. İndi yenə həmi komitə qondarma erməni soyqırımını qaldırmaq təşəbbüsündə bulunur. Özü də onların elə də böyük gücü də yoxdur. Cəmi 3-5 deputatdan ibarətdirlər və İsrail Knessetinin fəaliyyətinə, qərarlarına təsir etmək imkanlarına malik deyillər. Üstəlik də, indiki situasiya tamamilə başqa bir situasiyadır. İsraillə Türkiyə arasında münasibətlər demək olar ki, yaxşılaşıb. Bu haqda görüşmələr başa çatıb. Sadəcə olaraq, qəbul edilmiş qərarların icrası ilə məşğuldurlar. Belə bir şəraitdə kimlərsə, yenidən münasibətləri gərginləşdirməyə cəhd etsələr, mən inanmıram ki, o uğur qazansın. Amma bir məsələ maraqlıdır ki, bu adamlar nələri hədəfləyirlər, nədən ötrü belə israrla "erməni soyqırımı" məsələsini tez-tez gündəmə gətirməyə çalışırlar".



**Politoloq qeyd etdi ki, İsraildə dinçi bir qrup var. Onlar Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və onun siyasəti ilə razı olmayan qrupdur. Bu qruplaşma böyükdür, amma onların içərisində bir neçə nəfəri, o cümlədən "erməni soyqırımı" ilə bağlı qanun layihəsini irəli sürənlər radikal dindarlardır. Onlar Türkiyə ilə barışmağın da tərəfdarı deyillər:** "Bununla əlaqədar olaraq da parlamentdə keçirilən müzakirələrdə Türkiyə ilə münasibətlərin bərpa edilməsinin əleyhinə getmişdilər. İndi də həmin radikal dindarlar belə fikirləşirlər ki, Qəzza bölgəsində fələstinli qruplaşmaları silahla, humanitar yardımla təchiz edən Ərdoğan hakimiyyətidir. Bu radikal dindarlar "erməni soyqırımı" məsələsini qaldırmaqla düşünürlər ki, bərpa olunmaqda olan Türkiyə-İsrail münasibətlərinin yenidən pozulmasına səbəb ola bilərlər. Mənim zənnimcə, Türkiyəyə təzyiq elementi kimi istifadə edilən "erməni soyqırımı" məsələsinin qaldırılmasının əsas səbəbi Türkiyənin "Həmas" təşkilatını müdafiə etməsidir. Bir məsələ leqal şəkildə sübut edilə bilib ki, "Həmas"ın liderlərindən birinci lideri Əl Məşəl bu gün İstanbuldadır, onun üçün ayrıca rezidensiya ayırıblar, o, Türkiyənin bir növ himayəsindədir. Əl Məşəlin verdiyi göstərişlər "Həmas"ın bütün qruplaşmaları tərəfindən sözsüz yerinə yetirilir. "Həmas" ABŞ və İsrail tərəfindən terrorçu təşkilat elan edilib. Amma Türkiyə, qeyd edildiyi kimi, bu təşkilatla ciddi əlaqələr saxlayır".

**Q.Hüseyni onu dedi ki, son İsrail-Türkiyə danışıqlarında, məsələn, "Həmas"a qarşı tətbiq edilən dəniz blokadasının götürülməsini təklif eləyən Türkiyə İsrailin demək olar ki, ciddi etirazını qəbul etmək məcburiyyətində qaldı. Sadəcə, İsrail dövləti bu blokadanın yumşaldılmasına güclə razı salına bildi:** "Amma buna baxmayaraq, İsraildəki qeyd etdiyim həmin dinçi qruplaşma hesab edir ki, İsraildəki bütün qarışıqlıqları, silahlı qarşıdurmaları və terror hərəkətlərini qızışdıran Türkiyədir. İndi bu qruplaşma sanki Ərdoğandan intiqam alırmış kimi "erməni soyqırımı" məsələsini tez-tez əllərində bayraq edərək bununla Türkiyəni şantaj etməyə çalışırlar. Amma bu çalışmalar hədər gedir və gedəcək. Çünki hər şeyi Benyamin Netanyahu hökuməti müəyyənləşdirir. Bu müəyyənləşdirmədə ölkənin prezidenti də yaxından iştirak edir. Yəni siyasi elita bütünlüklə Türkiyə ilə münasibətlərin yaxınlaşmasının və əvvəlki vəziyyətə qaytarılmasının tərəfdarıdır. O sarıdan belə dinçi qruplaşmaların baş verən proseslərə təsir edə biləcək gücdə olduğunu söyləmək mümkün deyil".

❑ **Etibar SEYİDAĞA**



# Sərkisyan rejiminin Qarabağla bağlı yeni, gizli planı

## İşğalçı ölkənin başçısı məsuliyyəti müxalifətlə bölüşüb özünü sığortalamaq, vasitəçi güclər qarşısında isə vaxt udmağa çalışır; Ermənistan prezidentinin hiyləgər gedişinin pərdəarxasında daha nə var? Ekspertlər son durumu şərh edir...

**Ermənistanda silahlı qrupun polis binasını ələ keçirməsi ilə baş qaldıran hərbi qiyamı hakimiyyət yalnız iki həftədən sonra yatırdı. Bir çox siyasi müşahidəçilər baş verən olayların bir qurama, siyasi tamaşa olduğunu bildirdilər, Qarabağ məsələsində Sərkisyan rejiminin vasitəçi güclər qarşısında daha uğurlu mövqe əldə eləmək istəyi ilə əlaqələndirdilər.**

Qeyd edək ki, qiyam sonrası çıxışında Ermənistan prezidenti tezliklə milli etimad hökumətinin yaradılacağının anonsunu verib. Bu isə siyasi-ictimai kəsimdə, media və ekspert dairələrində heç də birmənalı qarşılanmayıb, hakim qüvvənin hansısa "pis niyyəti"nin olması barədə ehtimallar doğurub.

Bəs bundan sonra işğalçı ölkədə daxili ictimai-siyasi proseslər hansı məcrada cərəyan edəcək, Sərkisyan iqtidarı hədəfinə çatdımı, ölkə yeni təlatümlərlə silkələnə bilərmi?

*****

**"Ermənistanda ikipərdəli tamaşanın birinci səhnəsi başa çatdı. İkinci pərdə isə Sərkisyan tərəfindən irəli sürülən milli barışıq hökumətinin qurulmasıdır". Bu ölkədə baş verənlərinin, sadəcə, bir oyun olması ilə bağlı zamanında söylədiyi fikirləri təsdiqini tapan sabiq dövlət müşaviri Qabil Hüseynli prosesin növbəti mərhələsini dəyərləndirərkın belə deyib (axar.az).**

**Onun fikrincə, Sərkisyan əsas məqsədinə - devrilməsi və ya istefaya getməsi ilə bağlı məsələlərin boşa çıxmasına nail olduqdan sonra indi üzərindəki məsuliyyəti bölüşməyi qərara alıb:** "Ermənistan prezidenti sülh danışıqları prosesi, xüsusilə sülh anlaşmasının böyük məsuliyyət tələb etdiyini bilir. Əgər böyük sülh sazişi imzalanarsa, bunun məsuliyyəti hökumətin üzərinə düşəcək. Çünki ermənilər o qədər qızışıblar ki, hər hansı kompromisi qəbul etmirlər. Sərkisyan milli barışıq hökuməti dedikdə məhz hakimiyyətin bir hissəsini güzəştə getməyə hazır olduğunu bəyan etmək istəyir. Yəni bütün sayılan milli qüvvələrin iştirakı ilə milli barışıq hökumətinə gedirlər. Bu, həm də məsuliyyətin bölünməsi məsələsidir. Yəni Sərkisyan bununla bir növ sanki özünü sığortalayır. Bunun üçün də milli barışıq hökumətinin qurulması lazımdır. Söhbət üzdə olan siyasi partiyaların və qüvvələrin iştirakı ilə yeni həmrəylik hökumətinin formalaşmasından gedir".

**Qabil Hüseynlinin sözlərinə görə, Ermənistan tərəfi qurulacaq yeni hökumətlə Dağlıq Qarabağ danışıqlarına mandat verəcəyini düşünür:** "Yəni milli barışıq hökuməti danışıqların hansı fundamental prinsiplər əsasında aparılmasına razılıq verəcək. Əgər o, danışıqlar prosesində nəticələr əldə edərsə, bunları bir növ təsdiqləyəcək və həmin nəticələr əsasında sülh şərtlərinin bağlanmasına razılıq verəcək. Bu, Sərkisyan tərəfindən atılmış hiyləgər addımdır. Çünki Sərkisyan hər şeyin bütün mili qüvvələrin iştirakı ilə həyata keçirilməsinə nail olmaq istəyir. Ancaq burada bir məsələ var, Petrosyan, Dəmirçiyan, "İrs" Partiyası və s. milli barışıq hökumətinə qatılacaqmı? Görünür, Sərkisyan əsas olduğu üçün də belə bir açıqlama verib".

**Ermənistanda hökumət böhranı adı altında başlanan prosesin növbəti mərhələsi sayılan milli barışıq hökumətinin qurulmasının kifayət qədər çətin proses olduğunu vurğulayan politoloq bu yolda razılıq əldə edilsə belə, səlahiyyətlərin bölüşdürülməsi məsələsinin çox vaxt aparacağını açıqlayıb. O, Sərkisyanın daxildəki böhranı bəhanə gətirərək, prezidentlərin növbəti görüşündə də özünü qeyri-konstruktiv aparacağını deyib:** "Erməni rəhbəri heç bir məsələni razılaşdırmayacaq. Səbəb olaraq da ölkəsində milli barışıq hökumətinin qurulmasını və yalnız bundan sonra ciddi danışıqlar prosesinin mümkünlüyü göstərəcək. Beləliklə, Qarabağ problemi yolunda əmələ gələn bu marafonabənzər yeni məsafə ermənilərin vaxt amilindən özləri üçün maksimum istifadə etmələrinə söykənir".

*****

**Öz növbəsində rusiyalı siyasi analitik Vitali Portnikov hesab edir ki, İrəvandakı silahlı qarşıdurmadan sonra ölkədə yaranan böhranın qarşısı yalnız ilk baxışda alınıb, yəni siyasi böhran əslində bitməyib. Çünki onun sözlərinə görə, Ermənistanda siyasi həyat anlamında bir şey, sadəcə, mövcud deyil:** "Hakimiyyət praktik surətdə bir neçə qruplaşma tərəfindən tamamilə inhisara alınıb və bu qruplaşmalar indi artıq həm siyasətdə, həm də iqtisadiyyatda öz "meyvələrini" dərir. Ölkədə parlament müxalifəti praktik olaraq marginallaşıb və nə hakimiyyətə gəlmək şansına, nə uğurlu iqtidar olmaq şansına malikdir, nə də ölkədəki situasiyanı dəyişmək gücünə. Amma bir neçə il öncə "Çiçəklənən Ermənistan" müxalifət partiyası parlament seçkilərində ikinci olmuşdu və onun lideri Qaqik Tsarukyana prezident seçkilərinin potensial iştirakçısı, hətta qalibi kimi baxılırdı. Ancaq hakimiyyətin hərəkətləri o qədər effektli oldu ki, 2013-cü ilin prezident seçkilərində Sərkisyana rəqib ola biləcək namizəd qalmadı. Bu zaman təkcə müxalifət marginallaşmadı, küçə etirazları da marginallaşdı. İrəvanda neçə ildir müxalifətin etiraz nümayişləri bir qayda olaraq, nəticəsiz başa çatır".



**Politoloqa görə, bunun da izahı var:** "Erməni cəmiyyətində son zamanlara kimi real qorxu var idi ki, hakimiyyət və dövlət sabitsizliyə uğraya bilər. Ona görə ki, belə bir fikir mövcuddur ki, bu sabitsizlikdən qonşu Azərbaycan faydalana bilər. Dağlıq Qarabağ konflikti - Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafındakı rayonlara nəzarət eləməsi hələ də Ermənistanda həm dövlət maraqlarını, həm də ictimai ovqatı müəyyən edən başlıca problem olaraq qalır. Ona görə də bütün bu illər ərzində müdafiə edilməli olan iki şübhəli doqma erməni diskussiyalarının məhək daşı kimi qalmaqda idi - hakimiyyətin sabitliyi və Rusiya ilə əlaqələrin qırılmazlığı. Lakin Qarabağ cəbhəsində bu yaxınlarda baş verənlər reallıq haqda bu təsəvvürləri alt-üst elədi. Məlum oldu ki, Azərbaycanla hərbi toqquşmada situasiya heç də Ermənistanın xeyrinə inkişaf etməyə bilər. Ancaq mühüm olan təkcə bu deyil, həm də odur ki, Rusiya bu zaman regiondakı yeganə müttəfiqini dəstəkləməyə əsla tələsmədi. Və belə rəy yarandı ki, Moskva Azərbaycan və Türkiyə ilə xoş münasibətlər naminə sakitcə Ermənistanı olmasa da, hər halda, Qarabağı verə bilər".

**Rusiyalı analitik daha sonra deyir ki, Ermənistanın Dağlıq Qarabağ ətrafındakı rayonlardan imtinasının mümkünlüyü barədə gedən danışıqlar təkcə radikallarda yox, həmçinin cəmiyyətin böyük bir kəsimində narazılıq yaradıb:** "Polis binasını ələ keçirənlər öz hərəkətlərini belə əsaslandırırdılar ki, iqtidar Qarabağı verə bilər və onlar Rusiyadan asılılığı azaltmağa çağırırdılar. Situasiyanın paradoksluğu da ondadır ki, Qarabağ münaqişəsi həll olunmamış qaldıqca Ermənistanın Rusiyadan asılılığı yalnız güclənəcək. Amma Ermənistanda bu kədərli asılılığı etiraf edə biləcək adam praktik olaraq yoxdur".

**Analitik ölkədə real xarakterli nə iqtisadi, nə sosial dəyişikliklər, nə də təhlükəsizlik qarantiyasının olmadığına diqqət çəkərək onu da qeyd edir ki, Ermənistan faktiki surətdə Rusiyanın protektoratına çevrilib:** "Hansını ki, 2013-cü ildə Putinin təzyiqi altında Sərkisyanın Avropa Birliyi ilə assosiativ sazişdən imtinası bir daha sübut elədi. Bununla belə, Rusiya istənilən əlverişli məqamda erməni maraqlarını qurban verə bilər. Qarabağ məsələsi olmasaydı, İrəvanda yenə Qərbə doğru manevrlər, təzədən oriyentasiyanın mümkünlüyü, təhlükəsizlik modellərinin axtarışı və qonşularla qarşılıqlı anlaşma barədə düşünə bilərdilər".

"Ancaq Qarabağ məsələsi - var. Ona görə də Ermənistanın hakimiyyəti və vətəndaşlarına yalnız ictimai ovqatın necə radikallaşmasını və ölkənin sonsuz konfliktlər və qarşıdurmalar girdabına necə yaxınlaşmasını köməksiz şəkildə müşahidə eləmək qalır" - politoloq sonda əlavə edib.

*****

Ermənistanın Rusiyanın bir protektoratı olduğu əslində çoxdan bəllidir. Bununla hər şey deyilib. Serj Sərkisyanın Qarabağla bağlı yeni və hiyləgər gedişinin baş tutub-tutmayacağına da ilk öncə bu sərt reallığın prizmasından baxmaq lazım gəlir. Yəni əsas - Sərkisyan rejiminin nə düşündüyü, hansı plan qurduğu, erməni toplumunda hansı ab-havanın hökm sürdüyü yox, sonda Kremlin nə deyəcəyi həlledici olacaq. Necə ki, həmişə belə olub.

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016



# Bizdə və Avropada çörəyin qiyməti

## Avropada çörək 2 dollar civarındadır; **ekspert:** “Orda orta aylıq əmək haqqı da Azərbaycandan ən azı 15-20 dəfə yüksəkdir”

**Bir neçə gün öncə bəzi mağazalarda çörəyin qiyməti 10 qəpik bahalaşdı. Təbii ki, bu bahalaşma əhali tərəfindən narahatlıqla qarşılandı. Bu istiqamətdə mübahisələrin getdiyi bu vaxtda maraqlı mövzuda gündəmə gəldi. Söhbət Avropa ölkələrində çörəyin Azərbaycandan bir neçə dəfə baha olmasından gedir. Almaniya, Fransa kimi ölkələrdə 1 kiloqramlıq çörək 2 avro, yəni təxminən 3 manatdır. Bu isə bizim zavod çörəyindən 6 dəfə baha deməkdir.**

Lakin burada ikinci bir məsələ də odur ki, həmin ölkələrdə əhalinin gəlir səviyyəsi, minimum əmək haqqı və təqaüdlər də ölkəmizdəkindən 5-10 dəfə çoxdur.

Bu təzadlı müqayisəyə münasibət bildirən **iqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, əksər ölkələrdə çörəkdən əsasən aztəminatlı ailələr istifadə edir, bu baxımdan, çörək heç bir ölkədə çox baha deyil: “Dünyanın əksər ölkələrində, o cümlədən də bizdə çörəkdən ən çox istifadə edən aztəminatlı ailələrdir. Azərbaycanda həm də bir çörək mədəniyyəti var, çörəkdən çox istifadə olunur. Əgər Avropa ilə müqayisə edib, orada çörəyin daha baha olduğunu deyirlərsə, bu o qədər də doğru yanaşma deyil. Avropada çörəyin bir kiloqramı 1,5-2 avro civarındadır. Almaniyada 1 kiloqramlıq çörək 1,5 avrodan bir qədər bahadır. İspaniyada 1 avro civarındadır. Fransada da 2 avroya yaxındır. Amma hər halda, Almaniyada minimum təqaüd 900 avrodur. İndiki məzənnə ilə hesablasaq, təxminən 1500 manata yaxın vəsait edir. Bizdə də maaşlar və təqaüdlər bu dərəcədə yüksək olsaydı, çörəyin 1-2 manat olması belə insanlar üçün problem olmazdı. Avropa, Amerika ilə qiymətləri müqayisə etmək doğru deyil. Azərbaycanı ətraf ölkələrlə müqayisə etmək daha doğru olar. Gürcüstanda, Ermənistanda, Rusiyada, Qazaxıstanda çörəyin qiyməti təxminən Azərbaycanda olduğu kimidir. Amma Azərbaycanda baş verən iki devalvasiyadan sonra orta aylıq əmək haqq dollar ekvivalentində MDB məkanında ən aşağı səviyyəyə düşüb. O baxımdan, müqayisələri qonşu ölkələrlə aparıb, orta aylıq əmək haqqını, yaşayış minimumunu, minimum təqaüdü müqayisə edib, nəticə çıxartmaq lazımdır. Qiymətləri Avropa qiymətləri ilə müqayisə etmək doğru deyil.

Avropa ölkələrində çörək maksimum 2 avrodur. Almaniyada 1 kiloqram çörək 1,8-2 avrodur, Fransada da onların ən çox sevdiyi fransız batonu adlanan çörək 1,5 avrodur. Azərbaycanla müqayisədə bu təbii ki, baha qiymətlərdir. Lakin orada orta aylıq əmək haqqı da Azərbaycandan ən azı 15-20 dəfə yüksəkdir".

**Ekspertin sözlərinə görə, Avropada istehsal olunan çörəklə Azərbaycanda satılan çörəkdə keyfiyyət fərqi də var:** “Ölkəmizdə çörək üçün istifadə olunan buğdanın təxminən 70-75 faizi Qazaxıstandan, Rusiyadan, Ukraynadan gətirilən buğdadır. Çünki Azərbaycanın yerli buğdası həddindən artıq keyfiyyətsizdir. Həmin buğdadan keyfiyyətli çörək almaq mümkün deyil. Təxminən 75 faiz xaricdən gətirilmiş unla, 25 faiz yerli unu qataraq nisbətən keyfiyyətli çörək istehsal etmək mümkündür. Bu səbəbdən onu satmaq da mümkün deyil, texniki taxıl kimi istifadə olunur”.

**N. Cəfərli Azərbaycan buğdasının keyfiyyətsiz olmasının səbəbini hökumətin taxılçılığın inkişafı ilə bağlı proqramında olan nöqsanlarla əlaqələndirdi:** “Bunun səbəbi də odur ki, bizdə fermerlərə verilən subsidiyanın buğdanın keyfiyyətinə görə deyil, əkilən ərazinin sahəsinə görə verilməsidir. Biz bununla bağlı dəfələrlə hökumətə təkliflər vermişik ki, bu, yanlış yoldur. Bundan sonra əksər icra başçıları, fermerlər və Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri əlbir olub daha çox əkin sahəsi yazmaqla daha çox subsidiya mənimsəməyə başladılar. Bu da dövlətin bu sahəyə ayırdığı vəsaitlərin düzgün istiqamətdə xərclənməməsinə səbəb oldu.

Dünyanın hər yerində dövlət təşviq proqramını son məhsulun həcminə və keyfiyyətinə görə verirlər. İndi Azərbaycanda çörəklə bağlı yaranmış vəziyyətin günahkarı hökumətin qeyri-effektiv proqramıdır. Nəticədə həm yerli buğdanın keyfiyyəti və həcmi aşağı düşdü, həm də idxaldan asılılıq yarandı".

❑ Nərgiz LİFTİYEVA

# Ermənistan müxalifətindən prezidentə yeni hədə - Sərkisyan Moskvaya sığınır

## İşğalçı ölkədə baş verən silahlı toqquşmaların ardınca mübarizənin ikinci mərhələsinə start verilir; Qarabağ danışıqları arxa plana keçir?

**Ermənistanda 17 iyuldan yaşanan gərginliklər polis alayının binasını zəbt etmiş silahlı dəstənin 31 iyulda təslim olması ilə başa çatsa da, görünən budur ki, işğalçı ölkədə tezliklə asayişi bərpa etmək mümkün olmayacaq. Bunu müxalifətin vəziyyətlə əlaqədar son açıqlamaları da sübut edir.**

İrəvanda həbs edilən 47 nəfərin ardınca ayrı-ayrı müxalifət fəallarının da çevriliş cəhdində ittiham olunaraq həbsə atılması Serj Sərkisyanın ölkədə repressiya maşınını işə salacağı qənaətini formalaşdırır. Hər halda, ilkin mərhələdə S.Sərkisyan silahlıları ram edə bildi. Lakin xalq etirazlarının davam etməsi onun daha çətin sınaqlarla üz-üzə qalacağını deməyə əsas verir.

**Artıq ölkədə kütləvi itaətsizliyə çağırışlar eşidilir. “İkinci üsyan mərhələsinin başlama vaxtı çatıb”. Bunu jurnalistlərə açıqlamasında erməni deputat Zarui Postancıyan söyləyib (axar.az). Onun sözlərinə görə, bu üsyan qanlı olmamalıdır:** “Biz heç kimin, hətta Serj Sərkisyanın qanını belə tələb etmirik. Biz Sərkisyan və onun quldurları olan polislərdən azad olmalıyıq. Bunun üçün bütün polislər muzdlu şəkildə ön cəbhəyə göndərilməlidir”.

“Əgər Ermənistanda normal siyasi proseslər vasitəsilə fövqəladə xarakterli məsələlərin həllinə nail olmasaq, ölkədə ”Sasna çrer" adlı yeni silahlı qruplaşmalar yaranacaq". APA-nın “news.am” saytına istinadən verdiyi xəbərə görə, bunu da Ermənistanın müxalif “İrs” Partiyasının lideri Raffi Ovannisyan deyib. Qatı radikal müxalifətçi olan Ovannisyan hazırda fəallığı ilə əksər müxalifət liderlərini qabaqlayıb. Onun partiya üzvlərinin həbs edilməsi də “İrs” liderini xalqa xitab etməyə vadar edib. Çox güman ki, o, özünün həbsindən də ehtiyatlanır. Bildirib ki, hər bir Ermənistan vətəndaşı “Sasna çrer” üzvü ola bilər: “Lakin onlar bizim ölkəmizi işğal edən qalstuklu terrorçulara qarşı vuruşan antiterrorçular olacaq. Əgər indiki vəziyyətin dəyişməsinə nail olmasaq, o zaman heç kim sərhədlərimizdəki itkilərə təəccüblənməsin”.

Ermənistan prezidenti Serj Sərkisyanın isə avqustun 10-da Moskvaya işgüzar səfər edəcəyi məlum olub. Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Sərkisyanın budəfəki səfəri Rusiya prezidenti Vladimir Putinin dəvəti ilə baş tutacaq. “Səfər zamanı bir sıra aktual beynəlxalq və regional problemlərə dair fikir mübadiləsi aparılacaq”, - deyə bildirilib.

Sərkisyanın ölkəsindəki qanlı toqquşmalardan sonra Moskvaya getməsi suallar doğurur. Ancaq avqustda prezidentlər səviyyəsində Qarabağ müzakirələri də olacaq. Şübhəsiz ki, o, Putindən təlimatlar alacaq. Ancaq istisna deyil ki, o, hakimiyyətinə Moskvanın birmənalı dəstək verib-vermədiyini də konkretləşdirmək istəyəcək.

**Politoloq Arzu Nağıyev vəziyyəti təhlil etdi:** “Ermənistanda baş verən siyasi şoudan sonra artıq Rusiyanın İrebuni aviabazasında "MİQ-29" təyyarələri qrup şəklində uçuşlara başlayıb. Yəni hər hansı bir cəhd olarsa, hava məkanında Rusiya hava hücumundan müdafiə qüvvələri müdaxilə edəcəklərini göstərməyə çalışır. Son günlər Ermənistanda baş verənlər bütün dünyaya göstərdi ki, başda polis və ümumiyyətlə, hüquq-mühafizə orqanları olmaqla, dövlət idarəçiliyində ciddi problemlər var. Dövlətçilik prinsipləri artıq işləmir və bununla da Sərkisyan rejimi çökməyə məhkumdur. Onu hakimiyyətdə saxlayan yeganə amil Qarabağ münaqişəsidir. Təbii ki, Qərb də öz siyasi oyununu oynayır və hələ ki müəyyən kəşfiyyat işlərini həyata keçirir. Yəqin ki, onların əsas məqsədi ictimai narazılıqla başlanan hərəkatın hakimiyyət dəyişikliyi ilə nəticələnməsinə gətirməkdir”.



Arzu Nağıyev



Qafar Çaxmaqlı

**Lakin A.Nağıyev burada Rusiya faktorunun olduğunu vurğuladı və Sərkisyanın Moskva səfərinə diqqət çəkdi:** “Məlumdur ki, Qərb heç cürə Türkiyə-Rusiya yaxınlaşmasını istəmir və hətta bu, baş tutsa belə, NATO-Rusiya sərhədinin Ermənistandan keçdiyi üçün orada nəzarəti öz əlinə alaraq loyal bir qərbyönümlü hakimiyyət qurmaq istəyir. Buna görə də Putinin Azərbaycana səfərindən dərhal sonra müvafiq təlimat üçün Sərkisyanın Moskvaya gedəcəyi haqda anons verilir. Bu gün Rusiya üçün Sərkisyan vacib fiqurdur, lakin hazır digər kadr olandan sonra istefası qaçılmaz ola bilər. Qarabağ münaqişəsinin həlli kontekstindən yanaşanda isə Rusiya təşəbbüsü ələ alaraq müəyyən irəliləyiş etmək istəyir. Çünki onun da yeganə çıxış yolu budur, həm nüfuz üçün, həm də Qərbə yarınmaq üçün”.

Bəs Ermənistan daxilindəki vəziyyəti təhlil etsək, hansı qənaətə gəlmək olar, Sərkisyanın istefaya yola salınması halında hakimiyyətə kimlər, hansı qüvvələr gələ bilər? Post-Sərkisyan dövründə hakimiyyətdə yenədəmi “Qarabağ klanı” ola bilər, yoxsa Ermənistan kökənlilər iqtidara sahiblənəcək? Əgər dəyişiklik baş versə, yeni hakimiyyət Qarabağ məsələsində güzəştlərə üstünlük verəcək, yoxsa daha radikal mövqedən çıxış edəcək?

**Bu barədə Azərbaycan-Erməni Araşdırmaları Mərkəzinin və Türkiyənin Ərciyəs Universiteti Ermənişünaslıq bölümünün rəhbəri, professor Qafar Çaxmaqlının fikirlərini öyrəndik. Araşdırmaçı alim dedi ki, Ermənistanda dövlət başçısı seçki ilə seçilmir, onu Rusiya təyin edir:** “Ermənistanda hakimiyyət dəyişikliyini hələlik Rusiya istəmir, Sərkisyandan hələ yetərincə istifadə etməyib. Ermənistanda olan siyasi təşkilatların durumuna baxsaq, partiyalardan heç biri bu işə hazır görünmür. Ermənistan Milli Konqresi tərkibində bir neçə partiyanı birləşdirsə də, cəmiyyətdə əvvəlki nüfuza sahib deyil və Ter-Petrosyan iqtidarla əməkdaşlıq edir. Bugünlərdə onların radikal müxalif səsinin eşidilməməsi də göstərdi ki, onlar bu iddiada deyillər. Raffi Ovannisyanın ”İrs" Partiyasının mübarizəsi də parlament mübarizəsindən qabağa keçmir. “Çiçəklənən Ermənistan” və onun lideri Qagik Tsarukyan biznes maraqlarını təmin etdiyindən hakimiyyət barədə daha düşünmür, keçmiş prezident Köçəryan ötən illərdə Moskvanın razılığını alıb yenidən bu kreslonu ələ keçirmək üçün dəridən-qabıqdan çıxdı. Amma Moskva onun daha işə yaramadığını bildirdi və o da yerində oturub. Moskvanın “proyekti” yenə hərbi siyasi rejimi davam etdirən adamdır".

**Q.Çaxmaqlı bildirdi ki, bu, müdafiə naziri Seyran Ohanyan ola bilər:** “O, Azərbaycanı yaxşı tanıyır, Bakıda hərbi təhsil alıb, rus hərbi təcrübəsi var, silahlı müxalifətlə işbirliyi içərisindədir. Bir neçə il bundan öncə də bu ”proyekt" Moskvanın gündəminə gəlmişdi, o zaman Seyran Ohanyanın 366-cı alayda xidmət edərkən Xocalı soyqırımında ittiham olunanlardan biri olması Rusiyanı bu fikirdən vaz keçirmişdi, amma yenə deyirəm ki, Rusiya hələ Sərkisyandan sonadək istifadə etməyib. “Qarabağ klanı” ifadəsi şərti bir şeydir. Düzdür, burada “klan” hakimiyyəti mövcuddur, amma bu “klan”ın içində hər cür cinayətkar elementlər var, hətta beynəlxalq terroristlər belə".

Müşahidələr göstərir ki, işğalçı ölkədə 2 polisin qətlə yetirilməsi, onlarla insanın yaralanması ilə müşayiət olunan silahlı toqquşmaların ardınca mübarizənin ikinci mərhələsinə start verilir. Belə olan təqdirdə Qarabağ danışıqları yenə arxa plana keçə bilər. Hər halda, Sərkisyan bu vəziyyətdə hansısa ciddi anlaşmaya cəsarət etməz".

❑ E.PAŞASOY

# Ölkənin taxıl ehtiyatı yetərlidirmi...

## Ekspertlər idxaldan asılılıqdan narahatdır, rəsmilər isə bunun azalacağını vurğulayırlar…

**İlkin proqnozlara görə, cari ildə Azərbaycanda 3 milyon tondan artıq taxıl istehsalı gözlənilir. Kənd Təsərrüfatı Nazirliyi Aparatının Bitkiçilik Şöbəsinin müdiri İmran Cümşüdov "AzərTAc"a müsahibəsində bildirib ki, Dövlət Statistika Komitəsinin iyulun 25-nə olan məlumatına əsasən, 961555 hektar payızlıq və yazlıq dənli və dənli paxlalıların (qarğıdalısız) 929939 hektarı biçilib, 2764849 ton məhsul istehsal edilib. Məhsuldarlıq hər hektardan orta hesabla 29,7 sentner olub. Hava şəraitinin əlverişsiz keçməsinə baxmayaraq, keçən illə müqayisədə məhsuldarlıq 0,8 faiz çoxdur. Cəmi biçiləcək 590659 hektar buğda sahəsinin isə 572539 hektarı biçilib və 1804994 ton məhsul əldə edilib. Burada isə məhsuldarlıq 31,5 sentner təşkil edib. Bu da keçən illə müqayisədə 0,2 faiz çoxdur.**

"İlkin proqnozlara görə, cari ildə ölkədə 3 milyon tondan artıq taxıl istehsalı gözlənilir. Hazırda istehsal edilmiş taxılın satışında və ayrı-ayrı dəyirmanlar tərəfindən tədarükündə heç bir ciddi problem müşahidə olunmur",- deyə İ.Cümşüdov qeyd edib.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Material Ehtiyatları Agentliyi Dövlət Taxıl Fondu üçün cari ilin iyul ayının 2-dən yerli buğda istehsalçılarından buğda qəbuluna başlayıb. Buğda nazirliyin iki taxıl elevatoru, həmçinin bir neçə müəssisələri vasitəsilə qiyməti bir ton üçün 240 AZN olmaqla qəbul edilir. Buğda Nazirlər Kabinetinin 7 iyul 2009-cu il tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş Dövlət Taxıl Fonduna tədarük olunan taxıl üçün qəbul edilmiş göstəricilərinə cavab verməlidir.



**İqtisadçı alim Elşad Məmmədov musavat.com-a açıqlamasında bildirib ki, bu sahədə bir sıra problemlər artıq xroniki hal alıb:** "Ölkənin taxıl ehtiyatları ilə bağlı məsələlərin strateji və prioritet istiqamət kimi qəbul olunduğu, bu sahənin ərzaq və ümumilikdə iqtisadi təhlükəsizliyin fundamental əsaslarından biri olmasını nəzərə alaraq, ölkədə taxıl ehtiyatlarının, Taxıl Fondunun real vəziyyətinin, habelə onun formalaşdırılmasının struktur təhlili vacibdir. Bu sahədə yaranmış vəziyyətin təhlili ölkədə bir sıra problemlərin artıq xroniki hal almasını göstərir. Belə ki, Taxıl Fonduna tədarükü də nəzərə almaqla ölkənin taxıla olan tələbatının təxminən 45 faizi idxal hesabına ödənilməkdədir. Son iqtisadi problemləri, ölkənin idxal-ixrac sistemindəki, xarici ticarətdəki struktur disbalansı da nəzərə aldıqda, bu, sözsüz ki, qeyri-məqbul hal kimi qəbul edilməlidir. Bu vəziyyətin yaranma səbəblərinə gəldikdə, bu, ölkədə taxıl istehsalında mövcud olan bir sıra problemlərin sistematik hal alması ilə bağlıdır. Bu problemlərin ən önəmlilərindən biri məhsuldarlığın aşağı səviyyədə olması ilə bağlıdır. Belə ki, orta MDB normativlərindən xeyli artıq sahələrin taxıl istehsalına ayrılmasına baxmayaraq, məhsuldarlığın orta dünya göstəricilərindən təxminən 2, aparıcı taxıl istehsalçıları ölkələrindən isə təxminən 3 dəfə aşağı olması, sözsüz ki, göstəricilərə öz mənfi təsirini etməkdədir. Texnoloji, o cümlədən suvarma ilə bağlı problemlərin mövcudluğu da sözsüz ki, problemin dərinləşməsinə xidmət edir. Ümumilikdə Sovet İttifaqının dağılmasından sonra ölkədə bu sahədə, ilk növbədə bu sahənin elmi-tədqiqat bazasının inkişafında ciddi problemlər olmuşdur ki, bu gün ölkə iqtisadiyyatı bunun bədəlini ödəməkdədir. Hazırda bu sahədə, əsasən elmi-tədqiqat işlərinin lazımi səviyyədə aparılmaması nəticəsində hətta yerli istehsal üçün belə xammalın idxalı mövcuddur ki, bu, sözsüz ki, arzuedilməzdir. Nəticədə ölkə bu sahədə ciddi iqtisadi problemlərlə, o cümlədən idxaldan asılılığın kritik səviyyədə olmasından irəli gələn qiymət artımı, bu sahədə idxalı təmin etmək üçün müəyyən hesablamalara görə illik 300 milyon dollara yaxın kapital axını və digər iqtisadi problemlərlə üzləşməkdədir, bunların kompleksli həlli ölkə hökumətinin iqtisadi bloku üçün prioritet istiqamətlərdən olmalıdır".

**Qeyd edək ki, ötən il baş verən iki devalvasiyanın fonunda ölkədə un və un məhsulları bahalaşmışdı. Ekspertlər narahatlıqla vurğulamışdılar ki, taxıl nə səbəbdən hələ də xaricdən idxal edilir. Həmçinin ekspertlər ölkədə əkilən taxılın yemək üçün yararsız olduğunu bildirmişdilər. Taxıl Fondu isə ehtiyatını xarici idxaldan topladığından, vəziyyət daha da acınacaqlı olmuşdu. Əksər ekspertlər bildirirlər ki, ölkədə ərzaq buğdası tamamilə idxaldan asılıdır. Ekspert Qalib Toğrulun sözlərinə görə, həmçinin istehsal etdiyimiz taxıldan əslində heç yemək üçün də istifadə edilmir:** "Xaricdən hər il təxminən 1 milyon 500 min ton buğda idxal edirik, 1 milyon 800 min ton da özümüz istehsal edirik. Azərbaycanın istehlakı, tələbatı təxminən 1 milyon 300 min tondur. Xaricdən aldığımız taxılın hesabına yaşayırıq".

Devalvasiyalardan sonra bir çox sahələrdə olduğu kimi, taxılçılıqla bağlı vəziyyətin normal olmadığı ortaya çıxıb. Belə ki, qeyri-neft sektorunu, kənd təsərrüfatını inkişaf etdirmək barədə fikirlər yenidən səslənərkən məlum olub ki, Azərbaycan heç taxıla olan tələbatını yerli istehsal hesabına ödəyə bilmir. Üstəlik, yerli istehsal qida üçün yararsızdır. Ekspertlər qeyd edirlər ki, bu, ərzaq təhlükəsizliyi ilə bağlı olan bir məsələdir və bunun məsuliyyəti Kənd Təsərrüfatı Nazirliyinin üzərindədir. Yəni indiyədək bu sahəyə ayrılan milyonlarla manatlıq dövlət yatırımlarına baxmayaraq, aqrar sektorda keyfiyyətli buğda yetişdirmək mümkün olmayıb. Əsas səbəb odur ki, fermerlərin maddi texniki təchizatı yetərincə deyil. Bu da kompleks yanaşmanın olmamasının nəticəsidir.

Son olaraq yayılan rəsmi məlumatlarda isə bildirilir ki, Azərbaycan taxılla bağlı idxaldan asılılığı azaldır. Ölkəmiz Rusiyadan idxal etdiyi taxılın həcmini xeyli azaldıb. Azərbaycana 2015/2016 kənd təsərrüfatı ilində Rusiyadan idxal edilən taxılın həcmi 5,7 faizdən 3,6 faizə düşüb. Beləliklə, Azərbaycanın Rusiyadan aldığı taxılın miqdarı 1,72 milyon tondan 1,21 milyon tonadək azalıb.

❑ **Röya RƏFİYEVA**

# Bakıda insanların arasında gəzdirilən təhlükə mənbəyi

## **Professor Adil Qeybulla:** "İtlər müəyyən infeksiyaların daşıyıcılarıdır"

## **Hüquqşünas:** "Ağızlıqsız it gəzdirən şəxslərə İnzibati Xətalar Məcəlləsinə görə cərimə nəzərdə tutulur"

**Son zamanlar Bakının mərkəzi küçələrində itlə gəzənlərin sayı xeyli artıb. Bu hala xüsusilə də günün ikinci yarısında, insanların sıx olduğu ərazilərdə, parklarda, dəniz kənarında daha çox rast gəlmək olur. Lakin məsələ burasındadır ki, it gəzdirən şəxslər nəzərdə tutulan təhlükəsizlik qaydalarına riayət etmirlər. Xüsusilə də onların itləri ağızlıqsız gəzdirmələri digər Bakı sakinlərinin narahatlığına səbəb olur.**

Hər gün axşam saatlarında itini gəzdirən Vüqar Kərimovla söhbətimiz zamanı o bildirdi ki, ətrafdakı insanların təhlükəsizliyi üçün itin ağzını xüsusi qoruyucu ilə bağlamağa gərək duymur: "Bu iti mən illərdir saxlayıram. Hələ indiyə qədər kimsəyə hücum etməyib. Ona görə də ağzını bağlamağa gərək duymuram. Həm də itin özü də o zaman narahat olur".

İtini şəhərin mərkəzi küçələrində gəzdirən digər sakinlər də demək olar ki, Vüqarın söylədiyi fikirləri təkrarladılar.

Lakin rəsmi statistikalar heç də onların fikirlərini təsdiqləmir. Belə ki, Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin 2015-ci ilin 6 ayının statistikasına görə, Azərbaycanda 7 066 nəfəri it dişləyib. Eyni zamanda 2014-cü ilin statistikasına görə, Bakı şəhəri üzrə 2197 heyvan dişləməsi faktı qeydə alınıb ki, bunun 1793-ü it dişləməsidir.

Bütün bunlardan əlavə hesab olunur ki, itlərin küçədə ağızlıqsız gəzdirilməsi, gigiyena qaydaları baxımından da uyğun deyil.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan tibb elmləri doktoru, professor Adil Qeybulla bildirib ki, insanların çox olduqları yerlərdə it gəzdirərkən xüsusi epidemioloji qaydalara riayət olunmalıdır:** "Xüsusilə də iri itlər mütləq ağızlıq deyilən vasitə ilə gəzdirilməlidirlər. Çünki hansısa bir situasiya yarandığı təqdirdə itlər təhlükəyə səbəb ola bilər. Belə ki, itlər bəzən öz həmcins və yaxud da əks cinslərini gördükləri zaman onlarda həddindən artıq qeyri-adekvat reaksiyalar əmələ gəlir. Belə itlər yaxındakı adamları hücuma da məruz qoya bilərlər. Əhalini narahat edən bu cür məsələlərlə bağlı bəzən müvafiq orqanlar lazımi tədbirləri görmürlər. İnsanlar özləri də buna laqeyd yanaşırlar. Metronun "Sahil" stansiyasının yaxınlığındakı bədbəxt hadisəni yada salaq. Orada da gəzdirilən it yaxındakı xanımlara diskomfort yaratdı və nəticə bir nəfərin ölümü, digərinin isə yaralanması ilə yekunlandı. Ancaq bundan da nəticə çıxarılmadı".

**Professor bildirib ki, bu məsələyə son dərəcə ciddi yanaşmaq lazımdır:**

"Bunu lazımi orqanlar nəzarətdə saxlamalıdırlar. Xüsusi ağızlıqsız itin gəzdirilməsi qadağan edilməlidir. Bəzən görürsən ki, iti açıb buraxırlar, o da gedir ətrafdakıların ayağına toxunur. Nəzərə alaq ki, itlər müəyyən infeksiyanın da daşıyıcılarıdırlar. İnsana hücum edən it quduz da ola bilər və bunu heç sahibi də bilməz. Ona görə də bu məsələlərə son dərəcə diqqətli yanaşmaq lazımdır".

**Məsələ ilə bağlı Azərbaycan qanunvericiliyində də müvafiq qaydalar yer alıb. Bu barədə "Yeni Müsavat"a danışan hüquqşünas Müzəffər Baxış bildirib ki, ağızlıqsız it gəzdirən şəxslərə İnzibati Xətalar Məcəlləsinə görə cərimə nəzərdə tutulur. Məcəllənin 290-cı maddəsində qeyd olunur:**

"290.1.1. ev heyvanlarının qadağan edilmiş yerlərdə saxlanılmasına, qidalandırılmasına, gəzdirilməsinə və ya yetişdirilməsinə; 290.1.2. ev heyvanlarının nəqliyyat vasitələri ilə aparılması şərtlərinin pozulmasına; 290.1.3. it və pişiklərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi saydan artıq saxlanılmasına; 290.1.4. itlərin cilovsuz, iri itlərin isə həmçinin buruntaqsız ümumi məhəllələrdə və ya küçələrdə gəzdirilməsinə görə iki yüz manat məbləğində cərimə edilir".







Xarici ölkələrdə və xüsusilə də Avropada buna daha çox diqqət edirlər. Avropa ölkələrində itlərin ağızlıqsız gəzdirilməsi üçün xüsusi yerlər nəzərdə tutulub. O yerlər xaricində heç kim itini ağızlıqsız gəzdirə bilməz. Sərhəd qonşumuz İranda isə 2014-cü ildə bu məsələ hətta parlament səviyyəsində müzakirə edilib. Belə ki, İran parlamentinin 39 deputatı yeni qanunverici təşəbbüslə çıxış ediblər. Onlar küçələrdə it gəzdirənlərin köpəklərinin müsadirə edilməsini, üstəlik, cərimələnməsini tələb ediblər. Qanun layihəsi şəhərlərdə it saxlamağın qadağan edilməsini və cinayət sayılmasını da təklif edib.

Küçədə it gəzdirənlərin 100-500 dollar məbləğində cərimələnməsi istənilib.

❑ **Əli RAİS**

# Bakıda film kimi quldurluq

## Birgə yeyib içdilər, iranlını döyüb pulunu aldılar



**Bakıda İran vətəndaşı döyülərək qarət olunub. Binəqədi rayonunun Fatmayi qəsəbəsində 3 şəxs İran vətəndaşı Murtəza Azərə və Bakı şəhər sakini Sədi Məmiyevə zor tətbiq edərək 750 manat pul alıblar.**

Binəqədi RPİ 4-cü PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, futbol klublarının birinin üzvü olan Miqdar Məmmədov, Abşeron rayon sakinləri Orxan Atayev və Məhərrəm Məhərrəmov saxlanılıblar.

İdarəyə gətirilən Məhərrəm, onun qayını Miqdar və tanışı Orxan törətdikləri əməli etiraf ediblər.

17 gündür ki, ailə həyatı quran Məhərrəmin sözlərinə görə, kafedə çay içdikləri zaman 2 nəfər onlara yaxınlaşıb. Şəxslər Məhərrəmovun dostlarından onları tanıdıqları əyləncə klubuna aparmağı xahiş ediblər. Orxan taksi fəaliyyəti ilə məşğul olduğundan təkliflə razılaşıb. Avtomobilə müştəri kimi əyləşən şəxslər Miqdar, Orxan və Məhərrəmdən onlarla birgə əylənmələrini istəyiblər, hesabı ödəyəcəklərini deyiblər. Ancaq sonda hesabın yüksək miqdarda gəlməsi şəxslərin verdikləri sözdən yayınması ilə nəticələnib.

**Məhərrəm Məhərrəmov - saxlanılan şəxs:** "Şotu vermədilər, dedilər ki, bizlik deyil, biz ikimizin pulunu verəcəyik. Sonra bunları götürüb, evlərinə apardıq. Mən telefonu "zaloq" qoydum ki, pulu verib götürərəm. Yolda dedim ki, maşını saxlasın. Düşdük, onlarla dalaşdıq. İranlı pulu qayınıma verdi, mən də ondan götürdüm".

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.



## Bakıya Göyçaydan qonaq gələn 16 və 14 yaşlı bacılar dənizdə batdı

**Bakıda iki bacı dənizdə batıb. Binəqədi Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə avqustun 2-də axşam saatlarında Novxanı çimərliyində qeydə alınıb. Göyçay rayon sakinləri - 2000-ci il təvəllüdlü Əliyeva Səmayə Vasif qızı və onun bacısı, 2002-ci il təvəllüdlü Aytac dənizdə çimərkən boğularaq ölüblər.**

Hadisə yerinə gələn Fövqəladə Hallar Nazirliyinin Dövlət Sularda Xilasetmə Xidmətinin dalğıc-xilasediciləri S. Əliyevanın meyitini taparaq çıxarıblar.

Musavat.com-un hadisə yerində olan müxbiri xəbər verir ki, bacılardan birinin meyiti dünən axşam saatlarında tapılsa da, digərinin meyitini tapmaq mümkün olmamışdı. Axtarış tədbirləri nəticəsində dünən kiçik bacı Aytac Əliyevanın meyiti də tapılıb.

## Bakıda avtomobil qəzası nəticəsində Türkiyə vətəndaşı ölüb

**Bakıda avtomobil qəzası nəticəsində Türkiyə vətəndaşı ölüb. Musavat.com Daxili İşlər Nazirliyinə (DİN) istinadən xəbər verir ki, hadisə avqustun 2-də saat 17 radələrində Qaradağ rayonunun Ələt qəsəbəsi ərazisində qeydə alınıb.**

Türkiyə vətəndaşı Aydın Celal Mustafa idarə etdiyi "Audi" markalı avtomobili qarşıda gedən Hacıqabul rayon sakini Ramil Dəmirovun idarə etdiyi "KamAZ" markalı avtomobilə vurub. Xəstəxanaya yerləşdirilmiş Aydın Celal Mustafa orada ölüb.

Baş Dövlət Yol Polis İdarəsi faktla bağlı araşdırma aparır.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**
**Əlaqə telefonu: (070) 335-90-15.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

## TƏBRİK



*Bu gün ömürlük məhbus Səfa Poladovun ad günüdür. Bu münasibətlə onu can dostu Arif Kazımov, ailə üzvləri və dostları ürəkdən təbrik edir, cansağlığı və uzun ömür arzulayırlar.*

*Tanrı tezliklə qapınızı açsın!*



## Bakıda ana uşağını qonşulara verib qaçdı

**Paytaxtın Sabunçu rayonu Elşən Mehdiyev küçəsinin 9 aylıq sakini Hüseynin anası xəstə yanına getmək adı ilə onu bir neçə saatlıq qonşuya verib və qayıtmayıb. Xəzərxəbər.com xəbər verir ki, qonşular həmin qadının yaxınlıqda fəaliyyət göstərən kafelərdən birində işlədiyini deyib.**

Ailə körpənin anasını tapmaq üçün aidiyyəti qurumlara müraciət etsə də, bir nəticə yoxdur. Onlar Hüseyni aidiyyəti orqanlara təhvil vermək istəyirlər.

Ancaq qonşular azyaşlının anasının gələcəyinə də ümid edirlər.

## Bu gün Azərbaycanda 39 dərəcəyədək isti olacaq

**Bakıda və Abşeron yarımadasında hava şəraiti az buludlu, əsasən yağmursuz olacaq. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, şimal küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 22-25, gündüz 31-36 dərəcə isti, Bakıda gecə 23-25, gündüz 33-35 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin günün birinci yarısında bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 34-39 dərəcə isti, dağlarda gecə 13-18, gündüz 23-28 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 758 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-70 %, gündüz 45-55 % təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 22-23 dərəcə, Buzovna, Mərdəkan, Şüvəlanda 23-24 dərəcə, Türkan, Hövsan, Sahil, Şıxda 25-26 dərəcə isti olacağı gözlənilir.

## Şamaxıda həşərat sancan 14 yaşlı qız ölüb

**Şamaxı rayonunda həşərat sancan 14 yaşlı qız ölüb. Rayon polis şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Şamaxı rayonunun Quşçu kəndində qeydə alınıb. Kənd sakini, 14 yaşlı Ruqiyyə Adıgözəlovanı evlərində zəhərli həşərat sancıb. Xəstəxanaya yerləşdirilən R.Adıgözəlova orada ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## FHN çimərliklərdə təhlükəsizlik qaydaları ilə bağlı əhaliyə müraciət edib

**Fövqəladə Hallar Nazirliyi (FHN) çimərliklərdə təhlükəsizlik qaydaları ilə əlaqədar əhaliyə müraciət edib. APA-nın FHN-in saytına istinadən verdiyi xəbərə görə, müraciətdə bildirilib ki, nəzərdə tutulmamış ərazilərdə çimmək, çimmə zonasının işarələnmiş sərhədlərindən kənara üzmək, küləkli havada dənizə girmək, çimərlikdə gecələmək, sərxoş halda çimərlikdə olmaq, suda kobud hərəkətlər etmək, çimərlikdə balıq tutmaq, xilasetmə texnikasından başqa digər qayıq və kiçik gəmilərlə çimərliyə daxil olmaq qadağandır.**

"Çimərlikdə uşaqlar nəzarətsiz qalmamalı, xəbərdaredici nişan və lövhələrin göstərişlərinə, xilasedicilərin çağırış və tələblərinə sözsüz əməl edilməlidir! Qızmar günəş altında fasiləsiz dayanmaq, hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir! Çimərliklərdə istirahət saat 09.00-dan 20.00-dək daha təhlükəsizdir! Təhlükə zamanı 112-yə zəng edin!", - deyə müraciətdə qeyd olunub.

YENİ MÜSAVAT
N 169 (6490) 4 avqust 2016

# Amerikansayağı boşanma...

## Dünya insanı gülə-gülə boşanır, bizimkilər isə kriminal xronikaya düşərək

**Azərbaycanda boşanmaların sayının artması heç kimə sirr deyil. Dövlət Statistika Komitəsi hər il boşanmaların artan qrafiki barədə məlumat verir. Və kriminal xronika da "boşanan cütlüklərin" bir-birinə qarşı amansız münasibəti ilə dolub daşır. Yaxşı, bəs dünyada boşanma niyə bizdəki kimi ağrılı, problemli və çətin proses deyil?**



Öncə dünyaya nəzər salıb, mənzərəni təhlil edək. "Reuters" agentliyinin xəbərinə görə, dünyada sayı artan boşanma xəbərləri ilə yanaşı, "Evliliklər ömür boyu davam etməlidir" deyənlərin sayı heç də az deyil. 46 ölkədə 25.000 dərnəkdən bu barədə soruşublar. «Ömür boyu!» deyənlərin faizi 70-dir. 46 ölkə arasında evliliyi sonuna qədər dəstəkləyən ölkə İndoneziya olub.

Qərb dünyasında "kürəyini ailəyə söykəyən" ölkələrin siyahısına ABŞ liderlik edir. Avropa çox da "ailəcanlı" deyil. Orada "uzun illər evli qalmaq dəbdən düşmüş bir ənənədir" fikri hökm sürür. Yunanıstanda da rəyi soruşulanların 74 faizi evliliyi heç də həyatının məqsədi hesab etmir. 100 avropalıdan 77-si bildirir ki, uzun müddət davam edən, sağlam bir münasibət ən azı evlilik qədər mənalıdır.

Avropada ən çox boşanma faizi Belçikadadır. Konkret ölkələr üzrə statistikaya nəzər yetirək:

Belçikada - 75 faiz, Estoniyada 70 faiz, Çexiyada 67 faiz, İsveçdə 54.1 faiz, Almaniyada 52.1 faiz, Fransada 45,7, Hollandiyada 39,7, İspaniyada 20,1, Yunanıstanda 19,6, İtaliyada 15,4, İrlandiyada 12,9 faiz.

### Britaniyada boşanmaların 75 faizi kişi xəyanətinə görə baş verir

**Dünyanın ən inkişaf etmiş araşdırma şirkətlərindən olan "Qrant Thomton"un keçən il keçirdiyi araşdırmada çox ilginc nəticələr var.**

**1.** İngiltərədə boşanmaq istəyən tərəf əsasən qadınlardır. Boşanma müraciəti ilə məhkəmələrə üz tutanların 93 faizi qadınlar.

**2.** Britaniyada kişilərin xəyanəti ucbatından baş verən məhkəmə işlərinin faizi 75-dir. Yəni xəyanət söhbətində kişilər qadınlardan 3 dəfə daha artıq günahkardır.

**3.** Boşanmaların yüzdə 6-sının səbəbi işkoliklikdir. Belə ki, insanlar işi evdən, ailədən üstün tutduqları üçün boşanmalar baş verir. İşkoliklər isə əsasən kişilərdir.

**4.** İngiltərədə boşanmaların 40 faizi evliliyin 5-10-cu illəri arasında, 53 faizi isə evliliyin 10-15-ci illəri arasında baş verir. Boşanmalardakı yaş senzi isə qadınlarda 35-45, kişilərdə isə 40-50.

**5.** İngiltərədə yekunlaşan boşanma nəticəsində qadınlar daha qazanclı olur. 60 faiz qadınlar qazanır, 30 faizində mal varlığı qadınla kişilər arasında bərabər bölüşdürülür. Cəmi 10 faizdə kişilər qazanclı çıxır.

**6.** Boşanan qadınlar əsasən evi və ev heyvanlarını özünə götürür. Kişilər isə əsasən maşın və varsa, bağ evini götürür.

- Amerikada da boşanma öz-özlüyündə bir sektor sayılır. Dünyanın ən varlı ölkəsində superzəngin insanlar yüz milyonlarla dollarlıq təzminat ödəmək məcburiyyətində qalırlar.

- Boşanma vəkillərinə ödənən məbləğ on milyardlarla dollara çatır. Dövlət təkcə boşanan qadınların uşaqları üçün 2003-cü ildə büdcədən 18 milyard dollar yardım ödəyib.

- Amerikada orta hesabla ilk evlilik yaşı kişilərdə 26,9, qadınlarda isə 25,3-dür. İlk boşanma yaşı isə kişilərdə 30,5, qadınlarda 29-dur. Evliliklər daha çox 7-ci ilində yekunlaşır.

- Amerikada evliliklərinin 5-ci ilini bayram kimi keçirən cütlüklər 82 faiz təşkil edir. Hər 5 evlilikdən biri 5 il ərzində yekunlaşır. 10-cu ili keçirənlərin faizi isə 65-dir. Hər 2 evlilikdən biri 15-ci ilə çatmadan nöqtələnir. Her 5 evlilikdən 4-ü 35-ci ili görə bilmir.

- İlk boşanmadan sonra kişilər yenidən evlənmək üçün 3.3 il, qadınlar isə 3.1 il gözləyir. Boşanmış ər-arvaddan ən azı birinin ikinci dəfə evlənməsi faizi isə 43-dür. Boşanma ilə yekunlaşan ikinci evliliklərin faizi təxminən 60 faizdir.

- Boşanmış cütlüklərin uşaqlarının da gələcəkdə boşanma ehtimalı birgə yaşayan valideynlərin uşaqlarından 50 faiz daha artıqdır.

### Vəkilə ehtiyac yoxdur, 37 sterlinq ver, özün boşan

Birləşmiş Krallıqda yaşayan minlərlə adam vəkillərdən istifadə etmək yerinə yalnız 37 sterlinq ödəyərək kompüterləri, ya da ağıllı telefonları vasitəsilə boşanır. "Özün boşan" deyə adlandırılan və internetdə ağıllı telefonlar vasitəsilə boşanmalarda 12 ay ərzində 50%-lik artım olub. Gələn il ərzində boşanan hər beş cütlükdən birinin internetdən müraciət edəcəyi və ildə ən az, 25 min adamın bu yoldan istifadə edəcəyi bildirilir. Ənənəvi boşanma şikayətini 65% qadınlar etsə də internetdə vəziyyət fərqlidir. Statistikaya görə, kompüterdən istifadə edərək boşanmaq istəyənlərin 51% kişilər təşkil edir, qadınlar isə 49%-də qalır. Ağıllı telefonlardan istifadə edərək boşananların 65%-ni də kişilər təşkil edir.

Qeyd edək ki, İngiltərədə qəbul olunmuş qaydaya əsasən boşanmaq istəyən cütlüklər məhkəməyə müraciət etmədən, internet vasitəsilə boşana bilirlər.

### Evliliyi bitirən səbəblər - ən vacibləri

Dünya üzrə mənzərəni diqqətə çatdırdıq. Qayıdaq Azərbaycana. Maraqlıdır, bizdə bu statistikanın göründüyü kimi qabarıq olmasının səbəbi nədir? Psixoloqların araşdırmasına görə, boşanmalar ən çox ailə düzgün motivlər əsasında qurulmayanda baş verir. Belə ki, hər iki tərəfin evlənmək ərəfəsində qarşı tərəfi mütləq tanıması lazımdır. Sadəcə, qısa bir tanışlıq əsasında qurulan ailələrdə boşanma halları daha çox baş verir. Bundan başqa, ailədə müdaxilələri, o cümlədən qayınanaların gəlinə qarşı müxtəlif düşüncələrdə olmasını da göstərmək olar. Bu, bir növ qısqanclıq xarakteri daşıyır və bu cür qayınanaların belə münasibəti də onun həyat yoldaşının olmamasından, yaxud da onunla arasında ciddi problemlərin olmasından qaynaqlanır. Qayınana öz məsələsi ilə bağlı obyekt olaraq gəlini seçir və iradlarını gəlinin üzərində həyata keçirir.

Araşdırmalarda o da göstərilir ki, ümumiyyətlə, boşanmaların səbəbkarı kimi yalnız bir cinsi günahlandırmaq düzgün deyil.

Daha bir nüans isə odur ki, böyük bir ailə birgə yaşayarkən insanlar bir-biri ilə dil tapmağa çalışmalıdır. Əslində bu, ailəyə bir köməkdir, yəni nənənin ailədə olması uşaqlar üçün çox yaxşı haldır. Əgər maddi imkanı varsa, ailənin ayrı yaşaması təbiidir. İnsan psixologiyası daha rahat olmağa, komforta üstünlük verir. Ancaq böyük ailədə bütün insanlar elə davranış modelləri ortaya qoymalıdır ki, nəticə etibarilə ailə öz möhkəmliyini qoruyub saxlasın. Avropa ailə tərzini tərcih edənlərə gəldikdə isə bizdə həmin modeli seçən qadınlar azdır.

Evlilik hər birlik kimi arabir axsayan tərəfləri olan bir qurumdur. Bu axsamalar aradan qaldırılmadıqda isə nəticə təəssüf ki, boşanma ilə nöqtələnir. Evlilik müddətində ailəyə yeni bir üzv gəlibsə, boşanma daha ağrılı olur. Evliliyə son qoyulmasına yol açan səbəblər çox müxtəlif ola bilər. Ən çox rast gəlinən səbəbləri aşağıdakı kimi sıralaya bilərik:

**1.İqtisadi problemlər**

**2.Tərəflərin sosial-mədəni səviyyə fərqliliyi**

**3.Cinsi problemlər**

**4.Ünsiyyət problemi**

**5.Tərəflərdən birinin xəyanəti**

**6.Ailədaxili şiddət**

Yuxarıdakı səbəblərdən evlilik problemləri yaşayan ər-arvadın ata-ana olaraq da uşaqları ilə sağlam ünsiyyət qura bilmələrini gözləyə bilmərik; ana, ya da ata ayrı-ayrılıqda uşaqları ilə sağlam əlaqələr qursalar belə, birlikdə övladlarına qarşı düzgün davranmaqda çətinlik çəkəcəklər. Bir evliliyi həlli olmayan, bacara bilinməyən, qurtarmaq bilməyən problemlərlə davam etdirməyin uşaqda yaradacağı mənfi təsirlər bəzən boşanmanın özünün yaradacağı təsirlərdən daha çox və yıxıcı ola bilər.

Boşanmanın səbəb və necəliyi uşaqların boşanmadan nə qədər təsirlənəcəyini müəyyən edir.

Məsələn, tərəflərin bir-birini başa düşməməsi (ünsiyyət problemi) səbəbi ilə qurtaran evliliklə tərəflərdən birinin xəyanəti nəticəsində bitən evliliyi müqayisə edək. Birincidə tərəflər daha uzlaşan və uşaqla bağlı problemlərin öhdəsindən gəlmək barədə daha düşüncəli davrana bilirlər. İkinci vəziyyətdə isə tərəflər bir-birilərinə qarşı daha qəzəbli və düşməncə davranışlar göstərirlər. Vəziyyət belə olduqda istəsələr də uzlaşan ola bilməzlər. İkinci tip boşanmalarda uşaqlara təbii olaraq daha çox zərər dəyir.

❑ Sevinc TELMANQIZI



# 6 ayda Azərbaycanda 283 nəfər İİV-ə yoluxub

**2016-cı ilin birinci yarım ili ərzində Azərbaycanda aşkar olunan İİV-ə yoluxma hallarının 20,3%-i narkotika istifadəsindən baş verib.**

Bu barədə «Trend»ə Səhiyyə Nazirliyindən məlumat verilib. Məlumatda deyilir ki, həmçinin 1987-2016-cı illər ərzində isə aşkar olunan halların 49,2%-i inyeksion narkotik istifadəsi nəticəsində baş verib.

2016-cı ilin 6 ayı ərzində İİV-ə yeni yoluxma halları 283 təşkil edib. Onlardan 276-sı (97,5%) Azərbaycan vətəndaşlarında, 7-si (2,5%) isə əcnəbilərdə aşkarlanıb. Qeydiyyata alınmış 276 yerli sakindən 180-i (65,2%) kişi, 96-sı (34,8%) qadındır. Bu dövr ərzində QİÇS mərhələsinə 86 nəfər Azərbaycan vətəndaşlarından olan İİV-li xəstələr keçib.

2016-cı ilin 6 ayı ərzində İİV-ə yoluxması təsdiq olunmuş Azərbaycan vətəndaşları arasında yoluxma yolları aşağıdakı kimi olub: 56 nəfər (20,3%) parenteral, 160 nəfər (58,0%) heteroseksual, 5 nəfər (1,8%) homoseksual kontakt nəticəsində, 4 nəfər (1,7%) şaquli yolla, 51 nəfərin (18,5%) yoluxma yolu müəyyənləşdirilməkdədir.

YENİ MÜSAVAT

Son səhifə

*N 169 (6490) 4 avqust 2016*



# Uşaqları çox təriflısəniz.... stressə girəcəklər

**İngilis, holland və amerikalı alimlərin apardıqları araşdırmalar nəticəsində məlum olub ki, uşaqları çox tərifləmək onlara yaxşı təsir etmir. Mütəxəssislərin sözlərinə görə, onlar 240 uşaq arasında sorğu keçiriblər.**

Uşaqlar valideynləri onları təriflədikcə məsuliyyətlərinin daha da artdığını və bunun onları stressə saldığını deyiblər. Məhz bu səbəbdən də pediatrlar uşaqları həddən artıq tərifləməyin doğru olmadığını və uşaqları sərbəst buraxmağın onlar üçün daha yaxşı olduğunu deyiblər.



# Bu qadınlar xəyanəti bağışlayırlar

**Adnan Menderes Universitetinin tədqiqatçı-professor heyətinin apardığı araşdırma sübut edib ki, qadınların yaşı evlilik zamanı xoşbəxtlikdə böyük rol oynayır. 34 cütlük üzərində aparılan araşdırma gec evlənən qadınların daha xoşbəxt olduqlarını göstərib.**

Üstəlik, 30 yaş civarında ailə quran qadınlar ailə içində yaranan problemi təkbaşına aradan qaldıra bilirlər. Bundan başqa, "Hansı halda evliliyinizi xilas etmək üçün mübarizə aparарsınız" sualına da qadınların 82 %-i "mütəmadi bir hal almadığı halda xəyanət belə olarsa, mübarizə apararam" deyib. Bu yaşda evlənən qadınlar işin içinə təzyiq, cinsi və fiziki zorakılıq girmədiyi müddətcə evliliyi davam etdirirlər.

# Bu adamın əlləri yanmır

**Hindistanın paytaxtı Dehlidə yaşayan kişi görənləri heyrətə salır. Balıq restoranının sahibi olan Prem Sing adlı kişi əllərini 200 dərəcə temperaturda qaynayan yağın içərisinə salır və orada balıq qızardır. 25 ildir ki, bu işlə məşğul olan Sing əlini isti yağın içərisinə salarkən heç nə hiss etmədiyini deyir. P.Sinq bu qeyri-adi istedadını təsadüfən bilib. İlk dəfə əlini təsadüfən yağa vurub və əlinin yanmadığını görüb. Sonra isə insanları təəccübləndirmək üçün bu işlə məşğul olmağa başlayıb. Onun sözlərinə görə, 200 dərəcəlik qaynar yağda əlləri balıq qızartdığı üçün restoranın müştərilərinin sayı xeyli artıb. Hər kəs onu görmək üçün restorana balıq yeməyə gəlir.**



# Qoyunla yemək yeyir, alış-verişə çıxır...



**İsveçrədə yaşayan 55 yaşlı Ellen Henderson adlı qadın evində it və pişik yox, qoyun saxlayır. Princess adlı qoyunu artıq ailələrin bir fərdi olaraq gördüklərini deyən Henderson aşağıdakıları bildirib: "Bu qoyun bizimlə alış-verişə gedir, qızımla birgə yatır, hətta birlikdə eyni süfrədə səhər yeməyi yeyirik. Princess o qədər ağıllıdır ki, nə zaman nə etməli olduğunu çox yaxşı bilir. Princess ilə bağlı bircə problemimiz var: o da toyuqlarımızın yemini oğurlamasıdır".**

# Öz qarnına yemək yeyir, ayda 9 min dollar qazanır

**Cənubi koreyalılar internetdə sözün əsl mənasında pul qazanmağın asan yolunu tapıb. Gördüyünüz qızın adı Park Su Yundur, internetdə isə onu Diva adı ilə tanıyırlar. Divanın işi kamera qarşısında sadəcə yemək yeməkdən ibarətdir.**



Onun hər gün 3 saat ərzində xımır-xımır yeməyi internetdə onlayn şəkildə yayımlanır və onun yemək yeməyinə minlərlə insan öz fərdi kompüterindən və ya internet salondan tamaşa edir.

Qeyri-adi yayımın tamaşaçıları, onunla çatlaşa və ya sonradan həqiqi pula çevrilə bilən, virtual şarlar yollaya bilər. Park Su Yun başqaları kimi qazancını gizlətmir, o bu yolla ayda 9 min dollara yaxın qazanc əldə edir. Onlayn yemək nümayişi o qədər uğurlu olub ki, o işlədiyi konsaltinq şirkətindən belə çıxıb. Özünün dediyinə görə, şou ona görə məşhurdur ki, bəziləri onun kimi çox yemək yeyə bilmir, digərləri isə evdə təkbaşına nahar etmək istəmir.

Statistika bu trendin belə yüksək olmasının əsl səbəblərini üzə çıxardır. Belə ki, Cənubi Koreyada evdə tək yaşayanların sayı son vaxtlar o qədər çoxalıb ki, 15 il ərzində belələrinin əhalinin üçdə birini təşkil edəcəyi proqnozlaşdırılır.



# Elektroşokla pis xatirələri silmək mümkündür

**Hollandiyanın Radboud Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, elektroşok müalicəsi ilə pis xatirələri silmək mümkündür. Depressiya xəstələri üzərində aparılan araşdırmalar göstərib ki, bu yolla insanların yaddaşından pis xatirələri silmək və onları psixoloji travmalardan uzaqlaşdırmaq üçün bu ən yaxşı vasitədir. Təcrübə zamanı 39 nəfər 4 qrupa bölünüb. Qruplardan ikisinin üzvlərinə avtomobil qəzasının videoları izlətdirilib. Sonra isə elektroşok dalğalarının köməyi ilə onların yaddaşından videonu izlədikləri anlar silinib. Mütəxəssislər depressiya xəstələrini dərmanla müalicə etməkdənsə, bu yolu seçməyin daha effektli olduğunu deyirlər.**




**QOÇ** - Çoxdandır ki, iş başınızı qatdığından ülvi hisslərdən uzaq düşmüsünüz. Məhz bu səbəbdəndir ki, uğurlarınız nə qədər çox olsa da, daxili narahatçılığınız azalmır. Bir az mətin olun.

**BUĞA** - Bu təqvimdə əsas enerjinizi fəaliyyət istiqamətinə həsr etməlisiniz. Çünki ulduzların düzümü əməkdaşlıq zəminində, eləcə də yeni işlərə başlamaqda uğurlarınızı artıracaq.

**ƏKİZLƏR** - Yaxşı olar ki, rahatlığınızı maksimum tərzdə təmin edəsiniz. Qonaq getmək, ürəyinizə yaxın adamları evinizə dəvət etmək sizə xüsusi zövq verəcək. Amma bir az qənaətcil olmağa çalışın.

**XƏRÇƏNG** - Əgər orqanizminizdə mövcud olan nasazlığı aradan qaldırmaq istəyirsinizsə, otaq şəraitində az olun. İqlimin qaynarlığını nəzərə alıb təbiət qoynunda, dostlar arasında olmağa çalışın.

**ŞİR** - Uğurlu perspektivdən xəbər verən olaylar mümkündür. İştirakçısı olduğunuz sövdələşmələrdən asılı olaraq yaxın gələcək üçün şəxsi işlərinizi maksimal dərəcədə təmin edə bilərsiniz.

**QIZ** - Mənfi enerjili Ayın sizin Zodiaka daxil olması ümumi işlərinizdə passivlik yaradacaq. Ovqatınızın aşağı düşməməsi üçün qeyi-adi hərəkətlərə yol verməyin. Səfərə də çıxmaq olmaz.

**TƏRƏZİ** - Daxilinizdə çövlan edən narahatçılıq mələklə şeytan arasında qalmağınıza rəvac verə bilər. Odur ki, iradənizi toplayıb Tanrı yolunu tutun. Dinə zidd hərəkətlərə qətiyyən yol verməyin.

**ƏQRƏB** - Yaxşı bilirsiniz ki, sizi hövsələdən çıxaran amillər çoxdur. Bu fəsadlardan qurtulmaq istəyirsinizsə, gün ərzində ətraf aləmdən təcrid olunun. Axşamüstü sürprizlə rastlaşma ehtimalınız var.

**OXATAN** - Əgər sağlıq durumunuz imkan verirsə, bu gün nəzərdə tutduğunuz işlərin əksəriyyətini həyata keçirəcəksiniz. Axşamsa maraqlı məclislərdə iştirakınız gözlənilir. Dəvətlərdən yayınmayın.

**OĞLAQ** - Qətiyyən dedi-qoduya aludə olmayın. Əks təqdirdə, başağrısına mübtəla olacaqsınız. Yaxşı olar ki, istənilən məsələdə qərarları özünüz verəsiniz. Yalnız bu halda uğurlar mümkündür.

**SUTÖKƏN** - Hiss olunur ki, çoxdan bəri nəzərdə tutduğunuz hansısa planınız reallığa yaxınlaşmır. Amma narahat olmağa dəyməz. Çünki nahardan sonra Göy qübbəsi işlərinizdə dönüş yaradacaq.

**BALIQLAR** - Prinsip etibarilə düşərli gün hesab etmək olar. Ələlxüsus da saat 12-16 arası əlinizə geniş imkanlar düşəcək. Gün ərzində sədaqətli insanlarla rastlaşma ehtimalınız da böyükdür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadınlar bu mahnıya qulaq asıb, stressdən azad olurlar



**İngilis alimlər "Morconi Union" musiqi qrupunun köməyi ilə qadınlarda stressi azaldan musiqi yaradıblar. "Veightless" adlı mahnı dünyada ilk dəfə məhz qadınların stressini azaltmaq üçün nəzərdə tutulub. İngiltərənin Səslə Müayinə Akademiyasının rəhbəri sözügedən mahnıdakı ritmlərin qadınların ürək döyüntülərini azaltdığını deyiblər. Təcrübə zamanı məlum olub ki, qadınlara dinlədilən bu mahnı onların stresini 11 faiz azaldır. Digər mahnılar isə 65 faiz qadınların narahatlığını artırır, 35 faizi isə istirahət etməsinə səbəb olur. Gitara və piano ilə bəstələnən mahnılar stressi daha da azaldır.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750